# GÜRCÜSTAN

SAYI 05-06 (13.375)
CÜMƏ 24 YANVAR 2025-ci İL

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"S A K A R T V E L O"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივ-პოლიტიკური კვირეული გაზეთი



E-mail: Gurcustan_1921@mail.ru Tel/ტელ: +995 32 222 04 76 E-mail: gurcustan2023@gmail.com


## İRAKLİ KOBAXİDZENİN AZƏRBAYCAN RESPUBLİKASINA SƏFƏRİ BAŞA ÇATIB



**Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin Azərbaycan Respublikasına səfəri yanvarın 17- də başa çatıb.**

Səfər çərçivəsində Gürcüstan hökumətinin başçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Baş Nazir Əli Əsədov ilə təkbətək görüşlər keçirib..

İki ölkənin baş nazirlərinin rəhbərliyi ilə Gürcüstan - Azərbaycan İqtisadi Əməkdaşlığın Hökumətlərarası Komissiyasının 10-cu iclası keçirildi.

İrakli Kobaxidze səmimi qəbula və qonaqpərvərliyə görə Azərbaycan Prezidentinə və Baş nazirinə təşəkkür edib və ikitərəfli münasibətlərin inkişafının vacibliyini vurğulayıb.

*"Bu münasibətlərin və dostluqların daha da dərinləşməsi bizim üçün son dərəcə vacibdir. Bunun həm bizim üçün, həmçinin, əminəm ki, Azərbaycan üçün də strateji əhəmiyyəti var. Mən bir daha şəxsən prezident Əliyevə Gürcüstana və gürcü xalqına yönəlik dəstəyinə və Gürcüstan - Azərbaycan münasibətlərinin dərinləşməsinə verdiyi töhfəyə görə minnətdarlığımı bildirmək istəyirəm",* – deyə Baş nazir bildirib.

Məlumatı Gürcüstan hökumətinin administrasiyası yayıb.

## GÜRCÜSTANDA 613 NƏFƏR MƏHKUM ƏFV OLUNUB



***Gürcüstan Prezidenti Mixeil Kavelaşvili 613 məhkum şəxsi əfv edib.***

Bu barədə Mixeil Kavelaşvili özünün sosial şəbəkə hesabında məlumat yayıb.

Məlumata görə, əfv Epifaniya bayramı ilə əlaqədar həyata keçirilib və "humanizm prinsipinə" əsaslanır.

*"Gürcüstan Prezidenti Mixeil Kavelaşvili Epifaniya bayramı ilə əlaqədar 613 məhkum əfv edib. Gürcüstan Prezidentinin Konstitusiya ilə ona verilmiş səlahiyyətdən istifadə etməsi humanizm prinsipinə və dövlət maraqlarına əsaslanır. Nümayiş etdirilən humanist yanaşma sayəsində əfv edilən şəxslərə ailələrinə qayıtmaq və cəmiyyətin tamhüquqlu üzvləri olmaq imkanı verildi,"* – deyə Mixeil Kavelaşvilinin "Facebook" səhifəsində yayılan məlumatda qeyd olunub.

## TRAMP ABŞ-NİN 47-Cİ PREZİDENTİ KİMİ AND İÇİB



***ABŞ-nin 47-ci prezidenti Donald Tarmp and içərək vəzifəsinin icrasına başlayıb.***

Mərasim təxminən min nəfərin yerləşə biləcəyi Konqresin mərkəzi salonu olan Rotundada 40 ildən sonra ilk dəfə baş tutub.

Respublikaçı Konstitusiyaya və İncil kitabına əlini qoyaraq andı içib.

Bununla da Tramp ABŞ tarixində fasilə ilə ən yüksək dövlət vəzifəsini tutan ikinci prezident olub. Əvvəllər buna yalnız Qrover Klivlend (1885-1889-cu illərdə və 1893-1897-ci illərdə) nail olmuşdu. Tramp hazırda ABŞ-ın 45-ci və 47-ci prezidentidir.

Trampla yanaşı, 40 yaşlı Ceyms Devid Vens də vitse-prezident kimi and içib.

## TBİLİSİDƏ 100 YAŞI TAMAM OLAN ŞƏXSLƏRƏ HƏR İL 10 MİN LARİ MÜKAFAT VERİLƏCƏK



***Tbilisidə qeydiyyatda olan 100 və daha yuxarı yaşda olan vətəndaşlar üçün mükafat 10 min lariyə qədər artırılıb.***

Bu barədə Tbilisi hökumətinin iclasında Kaxa Kaladze məlumat verib.

O bildirib ki, bu günə kimi, Tbilisi meriyası 100 yaşı tamam olan şəxslərə 1000 lari verirdi, bundan sonra isə bu rəqəm 10 dəfə artırılır:

*"Bu günə kimi, Tbilisi sakinlərinin 100 yaşı tamam olanda meriya ona min lari məbləğində mükafat verirdi. Qərara gəldik ki, mükafat on dəfə artırılsın və 100 və ya daha çox yaşı olan insanlar üçün 10 min lari təyin edilsin. Ötən il 57 nəfər sözügedən mükafatı alıb, onlardan 23-ü 100, 34-ü isə 101 və daha yuxarı yaşda olub.*

*Mən bu insanlara ilk növbədə can sağlığı, uzun ömür arzulayıram. Mükafatı almaq üçün vətəndaş və ya onun nümayəndələri Tbilisi meriyasının Səhiyyə və Sosial Xidmətinə müraciət etməlidirlər. Ərizəyə 100 yaşına çatmış vətəndaşın şəxsiyyət vəsiqəsi və son bir ildə Tbilisidə daimi qeydiyyatda olması haqqında vətəndaşlıq vəziyyəti aktları orqanından verilmiş məlumat vəsiqəsi əlavə edilməlidir. Sözügedən proqramdan 2025-ci ilə qədər faydalanmış yaşlılar artıq ərizə yazmaq məcburiyyətində qalmayacaq və müavinət birbaşa hesaba daxil ediləcək",* - deyə Kaxa Kaladze bildirib.

## İ. KOBAXİDZE DONALD TRAMPI TƏBRİK EDİB

***Gürcüstanın Baş naziri İrakli Kobaxidze Donald Trampı yenidən Amerika Birləşmiş Ştatlarının prezidenti seçilməsi münasibətilə təbrik edib.***

Bu barədə o, X sosial şəbəkəsində qeyd edib. Baş nazir bildirib ki, Donald Trampın rəhbərliyi qlobal sülhü təşviq etməlidir: *"Onun rəhbərliyi qlobal sülhü təşviq etməli və ABŞ-Gürcüstan münasibətlərini gücləndirməlidir. Prezident Tramp, bu mühüm yolda sizə uğurlar arzulayıram!"* - deyə İrakli Kobaxidze qeyd edib.

## GÜRCÜSTANDA BU İL BAŞ TUTACAQ BƏLƏDİYYƏ SEÇKİLƏRİNİN VAXTI ELAN OLUNUB



***Bu il Gürcüstanda 4 oktyabr tarixində bələdiyyə seçkiləri baş tutacaq.***

Bu barədə Mərkəzi Seçki Komissiyası (MSK) məlumat yayıb. Qeyd olunub ki, bələdiyyənin nümayəndəlik orqanının - özünüidarəetmə şəhəri/özünüidarə icmasının şurası və merinin növbəti seçkiləri 2025-ci il oktyabrın birinci şənbə günü (4 oktyabr) tarixində baş tutacaq. Mərkəzi Seçki Komissiyası bələdiyyə orqanları seçkilərdə iştirak etmək istəyən siyasi partiyaları qeyd olunan hüququ əldə etmək üçün bütün zəruri prosedurları vaxtında həyata keçirməyə çağırıb.

## GÜRCÜSTANLA AZƏRBAYCAN ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ MÜZAKİRƏ OLUNUB

***Gürcüstanın ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı naziri Davit Sonqulaşvili Azərbaycanın Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyevlə görüşüb.***

Görüş zamanı tərəflər iki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığın genişləndirilməsi imkanlarını müzakirə ediblər.

*"Kənd təsərrüfatı və ətraf mühitin mühafizəsi sahəsində səmərəli və uğurlu əməkdaşlığımızın əsasında ölkələrimiz arasında mövcud olan tarixi dostluq münasibətləri dayanır",* - deyə D. Sonqulaşvili bildirib.

Azərbaycan səfiri nazirə yeni vəzifəsində uğurlar arzulayıb.

*"Ətraf mühitin qorunması və kənd təsərrüfatı bizim üçün əməkdaşlığın maraqlı sahələridir. Düşünürəm ki, birgə bir çox qarşılıqlı maraq doğuran layihələri həyata keçirəcəyik",* - deyə F. Quliyev vurğulayıb.



## BAŞ NAZİR TÜRKİYƏDƏ BAŞ VERƏN FACİƏ İLƏ ƏLAQƏDAR PREZİDENT ƏRDOĞANA BAŞSAĞLIĞI VERİB

***Baş nazir İrakli Kobaxidze Türkiyənin Bolu bölgəsinin Kartalkaya Xizək Mərkəzində oteldə baş vermiş faciə ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana və türk xalqına başsağlığı verib.***

Hökumət başçısı bu barədə X sosial media hesabında qeyd edib. İrakli Kobaxidze başsağlığında türk xalqı ilə həmrəylik ifadə edib: *"Türkiyədə, Kartalkaya dağxizək kurort otelində baş vermiş dəhşətli yanğın məni dərindən kədərləndirdi. Bu faciə ilə əlaqədar kədərinizi bölüşür, həlak olanların ailələrinə başsağlığı verirk və türk xalqı ilə həmrəyik",* -deyə Kobaxidze qeyd edib. Xatırladaq ki, bu gün Türkiyədə Kartalkaya xizək kurortunda yerləşən otellərdən birində yanğın baş verib. İstanbulun 270 kilometrliyində yerləşən Kartalkaya xizək kurortunda baş verən yanğın zamanı 78 nəfər ölüb, 51 nəfər isə yaralanıb.

# BAŞ NAZİR: UNİVERSİTET İSLAHATLARI ÜZƏRİNDƏ İŞLƏYƏCƏK HÖKUMƏT KOMİSSİYASI YARADILACAQ



***Baş nazir İrakli Kobaxidzenin sözlərinə görə, universitet islahatları üzərində işləmək üçün hökumət komissiyası yaradılır.***

Bu barədə o, hökumətin iclasında bildirib.

*"Çox mühüm və ambisiyalı bir vəzifə qarşısındayıq - universitet islahatları sahəsində. Biz universitet islahatları üzərində işləyəcək hökumət komissiyası yaradırıq. 4 illik perspektivdə ölkəmizdə ali təhsil sistemini əsaslı şəkildə dəyişdirməliyik. Bildiyiniz kimi, bu gün ölkəmizdə ali təhsil keyfiyyəti qənaətbəxş deyil. Bu sahədə çox böyük resurslar mövcuddur. Biz hər bir resursdan maksimum dərəcədə istifadə etməliyik ki, 4 il ərzində keyfiyyətcə yenilənmiş bir sistem əldə edək. Tamamilə mümkündür ki, 4 il ərzində Gürcüstanın tələbəsi burada elə ali təhsil alsın ki, o, Avropa ölkələrində alacağı təhsilə bərabər olsun. Bunun üçün plan hazırlanmalıdır və hökumət komissiyası bunun üzərində işləyəcək. Hökumət komissiyasının rəhbəri Təhsil naziri Aleksandre Tsuladze olacaq. Komissiyanın katibi isə Baş nazirin təhsil və elm üzrə müşaviri Levan İzoria olacaq. Heç bir gün və həftə itirə bilmərik. Bizə intensiv iş lazım olacaq ki, 4 il sonra qoyulan məqsədə çatmağa nail ola bilək",* - deyə İrakli Kobaxidze bildirib.

# GÜRCÜSTANIN AZƏRBAYCANDAKI SƏFİRİ 20 YANVAR FACİƏSİ ŞƏHİDLƏRİNİ YAD EDİB

***Gürcüstanın fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze Azərbaycanda akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri və Gürcüstan səfirliyinin əməkdaşları ilə birlikdə 35 il əvvəl vətənin azadlığı uğrunda şəhid olanların xatirəsini ehtiramla yad edib.***

Bu barədə səfirliyin "Facebook" səhifəsində paylaşım edilib.

*"1990-cı il yanvarın 20-də sovet qüvvələrinin nümayişçilərə qarşı vəhşicəsinə basqınları nəticəsində dinc sakinlər öldürüldü.*

*Onların xatirəsini ehtiramla yad etmək üçün diplomatik nümayəndəliklərin rəhbərləri "Şəhidlər xiyabanı"nda Vətən uğrunda canlarından keçmiş şəhidlərin məzarlarına gül-çiçəklə bəzədilər.*

*20 Yanvar Azərbaycan xalqının yaxın tarixinə ən faciəli, eyni zamanda, qəhrəmanlıq səhifələrindən biri kimi, Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə günü kimi daxil olub"*



Qeyd edək ki, bu il Azərbaycanda 20 Yanvar faciəsinin 35-ci ildönümüdür.

Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 1990-cı il yanvarın 20-də Azərbaycana qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı Sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməmiş faciəyə gətirib çıxardı.

Həmin faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar.

# TRAMP 1500 NƏFƏRİ ƏFV EDİB



***Donald Tramp Kapitoli binasına basqın etməkdə təqsirli bilinən 1500 nəfəri əfv edib.***

Bu barədə CNN məlumat yayıb. Məlumata əsasən, ABŞ prezidenti Donald Tramp 6 yanvar 2021-ci ildə Kapitoli binasına soxulmaqda təqsirli bilinən 1500 nəfəri əfv edib. CNN-in məlumatına görə, Tramp artıq polisə hücum və əmlakı məhv etmək kimi bir sıra cinayətlərə görə məhkum olunmuş yüzlərlə insanı da əfv edib. ABŞ-nin 47-ci prezidenti kimi rəsmi olaraq vəzifəyə başladıqdan sonra Donald Tramp Co Baydenin 78 sərəncamının ləğvi də daxil olmaqla bir sıra icraedici tədbirlərə imza atıb. Bu gün imzalanan digər tədbirlərə daha sərt immiqrasiya siyasəti, o cümlədən ABŞ-nin cənub sərhədində milli fövqəladə vəziyyət elan edilməsi, ABŞ-nin Paris iqlim sazişindən çıxarılması və digər tədbirlər daxildir.

# HƏMAS İSRAİL GİROVLARININ İKİNCİ QRUPUNU YANVARIN 25-DƏ AZAD EDƏCƏK

***Yanvarın 25-də fələstinli məhbusların azad edilməsi müqabilində Qəzza zolağında saxlanılan israilli girovların ikinci qrupu azad ediləcək.***

Müvafiq bəyanat Fələstinin HƏMAS hərəkatınınTelegram kanalında paylaşılıb.

*"HƏMAS təsdiq edir ki, məhbus mübadiləsinin ikinci mərhələsi [İsraillə razılığa əsasən] planlaşdırıldığı kimi - şənbə günü, yanvarın 25-də baş tutacaq",* - deyə bildirilib.



O gün azad edilməsi planlaşdırılan girovların sayı barədə hələlik məlumat yoxdur.

# ABŞ SENATI RUBİONUN ABŞ DÖVLƏT KATİBİ VƏZİFƏSİNƏ NAMİZƏDLİYİNİ TƏSDİQLƏYİB



***ABŞ Senatı Marko Rubionun ABŞ dövlət katibi vəzifəsinə təsdiq edilməsinə səs verib.***

Bu barədə "CNN" televiziya kanalı icarə verib.

O, prezident Donald Tramp administrasiyasında yuxarı palata tərəfindən təsdiqlənən ilk yüksək vəzifəli məmur olub.

Rubionun namizədliyinə 99 senator səs verib, heç biri də əleyhinə olmayıb.

## Sitat guşəsi



"Prezident Tramp çox iddialı plan elan edib, bu, "Dərin Dövlət"i məğlub etmək planıdır və biz prezident Trampa bu məsələdə uğurlar arzulamaq istəyirik".

**İrakli Kobaxidze,**
**Gürcüstanın Baş naziri.**



"Ölkəmiz son illər çox əziyyət çəkib, amma biz onu şöhrətə qaytaracağıq. Biz şəfqətlə, cəsarətlə və bənzərsizliklə dolu bir ölkə olacağıq. Bizim gücümüz bütün müharibələri dayandıracaq və qəzəbli, qəddar və gözlənilməz olan dünyaya yeni birlik ruhu gətirəcək".

***Donald Tramp,***
***ABŞ-nin yeni seçilmiş Prezidenti.***



"Dünən Avropa İttifaqının Gürcüstan nümayəndəliyi özünün təsis etdiyi jurnalistika müsabiqəsində gürcü ordusundan oğurlayan Kezeraşvilinin "Formula" televiziyasının jurnalistinin finalçı olması xəbəri ilə bizi "sevindirdi". Bu televiziya kanalı bu gün də öz terrorunu davam etdirir. Nifrət və zorakılığı təbliğ edən təşkilatları təşviq etmək nifrət və zorakılıq kampaniyasında iştirak etməklə eynidir".

***Şalva Papuaşvili,***
***Gürcüstan Parlamentinin sədri.***



"Bizə heç kim sanksiyalarla qorxu yaradacağına inanmamalıdır. Biz, Gürcüstanı və ölkənin maraqlarını qoruyacağıq. Bizin İvanişvilinin vəsaitlərinə gəldikdə isə, siz öz vəziyyətinizə diqqət yetirin, çünki Gürcüstan daxilində və xaricində, vəziyyətiniz çox ağırdır. Bugünkü gündə sizin kimi radikal qüvvələr ölkənin qarşısında məhv edilmiş vəziyyətdədir. Özünüzə fikir verin,".

***Kaxa Kaladze,***
***Tbilisinin meri.***



"Taxıl dəhlizi sazişi davam etdirilməlidir. Türkiyə Xarici İşlər Nazirliyi taxıl dəhlizinin mümkün bərpası ilə bağlı danışıqları davam etdirir".

***Rəcəb Tayyib Ərdoğan,***
***Türkiyə Prezidenti.***




"Siyasi səbəblərə görə müəyyən təchizatçılara qarşı diskriminasiya Avropa əhalisinin həyat səviyyəsinə ciddi təsir göstərir".

***Peter Siyarto,***
***Macarıstanın xarici işlər və ticarət naziri.***



"Panama Respublikası və onun xalqı adından Prezident Donald Trampın Panama və onun kanalı ilə bağlı inauqurasiya nitqində səsləndirdiyi bəyanatları qətiyyətlə rədd etməliyəm. Kanal Panamanın bir hissəsi olub və olaraq qalır, onun rəhbərliyi daimi neytrallığına ciddi riayət etməklə, Panama nəzarəti altında qalacaq".

***Xose Raul Mulino,***
***Panama Prezidenti.***

# REGİON XƏBƏRLƏRİ

## Marneuli: BƏLƏDİYYƏNİN 2025-ci İL ÜÇÜN BÜDCƏSİ



***Bələdiyyənin 2025-ci il üçün büdcəsi 64 644 000 lari müəyyən edilib.***

Büdcə aşağıdakı prioritetlər üzrə bölüşdürülüb:

**1.** 15 804 700. 0 lari – Yol infrastrukturu, su sistemi, xarici işıqlandırma və abadlıq.

**2.** 5 009 900. 0 lari – Təmizlik və ətraf mühitin mühafizəsi, tullantıların idarə olunması, yaşıllaşdırma.

**3.** 7 072 000. 0 lari – Məktəbəqədər təhsil müəssisələri, ümumi təhsil.

**4.** 13 474 300. 0 lari – Mədəniyyət, İdman, Gənclik, Vətəndaşların maarifləndirilməsi.

**5.** 3 686 300. 0 lari – Sosial təminat.

**6.** 50 000. 0 lari – Gender bərabərliyinin təşviqi və vətəndaşların iştirakının dəstəklənməsi.

**7.** Kommunal infrastrukturun bərpası/saxlanması və s.

Sözügedən layihələr sakinlərin ehtiyaclarına uyğunlaşdırılıb və onlarla ünsiyyət əsasında müəyyənləşib.

## Telavi: SOSİAL PROQRAMLARIN VƏ SƏHİYYƏ PROQRAMLARININ MALİYYƏLƏŞDİRİLMƏSİ ARTIB

***2025-ci ildə Telavi Bələdiyyəsində 2024-cü ilin eyni dövrü ilə müqayisədə səhiyyə və sosial təminat üçün hazırlanmış proqramlar və müvafiq xidmətlər üçün maliyyələşmə 18,8 faiz artıb.***

İl ərzində Bələdiyyə zalında 20-dən çox aktiv sosial və sağlamlıq proqramı olacaq. Əlilliyi olan şəxslərin sosial müdafiəsinin maliyyələşdirilməsi davam etdirilir.




## Dmanisi: 2025-ci İL TARİXİNDƏN BƏLƏDİYYƏ NƏQLİYYATI SAKİNLƏRƏ PULSUZ XİDMƏT GÖSTƏRƏCƏK




**Aşağıdakı əlavə istiqamətlər üzrə:**

**Hər çərşənbə**

Saat 10:00-da Lökcandar kəndindən Dmanisi istiqamətində və saat 16:00-da Dmanisi şəhərindən Lökcandar kəndi istiqamətində;

Saat 10:00-da Qamışlı kəndindən Dmanisi istiqamətində və saat 16:00-da Dmanisi şəhərindən Qamışlı kəndi istiqamətində;

Saat 10:00-da Kakliani (Az-Gəyliyən) kəndindən,Boslebi kəndi,Dmanisi şəhəri istiqamətində və saat 15:00-da Dmanisi şəhərindən, Boslebi kəndi, Kakliani kəndi istiqamətində;

**Hər bazar ertəsi** və **cümə axşamı**

Saat 10:00-da Maşavera kəndi Dmanisi şəhəri 15:00-da isə Dmanisi şəhəri - Maşavera kəndi istiqamətində olacaq.

## Saqareco: LAYİHƏNİN İCRASI SON MƏRHƏLƏDƏDİR

Saqareco Bələdiyyəsinin meri Avtandil Qulikaşvilinin təşəbbüsü ilə Koda kurort zonasında turizmin inkişafı və biznesin dəstəklənməsi üçün infrastrukturun inkişaf etdirilməsi məqsədilə,"I♥Sagarejo" metal işıqlı konstruksiyasının quraşdırılması son mərhələdədir.

Quraşdırma artıq başa çatıb və bu mərhələdə işıqlar və məxfilik ekranı quraşdırılır.

Layihənin strateji məqsədi Saqareco Bələdiyyəsində turizmi təşviq etmək və ziyarətçilərin sayını artırmaqdır.



# BEYNƏLXALQ HƏYAT

## TOĞRUL ALLAHVERDİLİ: "İKİ ÖLKƏNİN DOSTLUĞU QAFQAZIN İNKİŞAFINA XİDMƏT EDİR"

***"Azərbaycan və Gürcüstan Qafqazda söz sahibi, sülhün, təhlükəsizliyin və inkişafın ən ümdə sütunlarından biridir".***

Bu sözləri Azərbaycanın tanınmış QHT sədri, siyasi şərhçi Toğrul Allahverdili Prezident İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidze arasında baş tutan işgüzar görüşü şərh edərkən bildirib.

Toğrul Allahverdili görüşün səmərəli keçdiyini və ölkələrimiz üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. O qeyd edib ki, Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin Azərbaycana səfəri, Gürcüstanda keçirilmiş seçkilərdən sonra ilk xarici səfər olaraq, tarixi əhəmiyyətə malikdir.

*"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidze arasında baş tutan işgüzar görüşün çox səmərəli və ölkəmiz üçün olduqca əhəmiyyətli keçdiyini əminliklə deyə bilərik. Bu görüş haqqında danışarkən ilk öncə onu qeyd etməliyik ki, gürcü baş nazirin bu səfəri Gürcüstanda keçirilən seçkilərdən sonra ilk səfər kimi tarixə düşdü. Bu, cənab prezidentimizin nüfuzu, ölkəmizin isə Qafqazda söz sahibi olmasının təzahürüdür"*, - deyə bildirib.

Seçkilərlə bağlı fikirlərini bildirən Allahverdili, Gürcüstanda son seçkilərin şəffaf və demokratik keçirildiyini, bu prosesin beynəlxalq müşahidəçilər tərəfindən də yüksək qiymətləndirildiyini vurğulayıb. O qeyd edib ki, Gürcü xalqı bu seçkilərdə öz milli dəyərlərini, təhlükəsizliyini və inkişafını qorumağa sadiqliyini nümayiş etdirib.

*"Seçkilərdən söz düşmüşkən, altını çizərək qeyd etmək istərdim ki, Gürcüstanda keçirilən son seçkilər tam şəffaf keçirildi. Bunu istər dünya ölkələri, istər beynəlxalq müşahidəçilər də əminliklə təsdiq etdilər. Gürcü xalqı son seçkidə öz gələcəyini, milli dəyərlərini, tarixi irsini, təhlükəsizliyini və inkişafını qorudu. Gürcüstan son illərdə çox böyük inkişaf mərhələsindədir. İstər turizm, istər gürcü xalqının rifahı artan xətt üzrə inkişaf edir və bu inkişafda hakim partiyanın, xüsusən də İ. Kobaxidzenin müstəsna rolu danılmazdır. Gürcüstan - Azərbaycan tək indi deyil, 100 illərdir mehriban qonşu, strateji tərəfdaş, dost və heç vaxt problem yaşamadığımız yeganə səmimi ölkələrimizdən biridir. İstər Azərbaycan, istər Gürcüstan Qafqazda söz sahibi, sülhün, təhlükəsizliyin və inkişafın ən ümdə sütunlarından biridir. Gürcü və Azərbaycan xalqı regionun inkişafında ən vacib xalqlar, milli mədəniyyət, tarixi irsi qorumaqda istər Qafqaza, istər dünyaya örnək ölkələrdir. Həmçinin qeyd etməliyik ki, bu inkişaf edən dostluğun səbəbkarlarından biri də Gürcüstandakı diplomatik korpusun dəqiq və qərəzsiz işləməsi, işini layiqincə görməsidir. Şəxsən cənab səfir Faiq Quliyevin və diplomatik korpus əməkdaşlarının fəaliyyəti Cənab prezidentin Gürcüstanla bağlı siyasəti ilə uzlaşır, tamamlıq təşkil edir.*

*Gürcüstan həm də Azərbaycanın hər sahədə ən yaxşı tərəfdaşlarından biridir. Azərbaycana zərbə vurmaq istəyən ermənipərəst qüvvələr, sorosçular dəfələrlə gürcüstandan istifadə edərək Azərbaycanı hədəfə almağa cəhd etsələr də buna nail ola bilməmiş, Gürcüstanı sorosçuların Azərbaycana qarşı riçak olmasına imkan verməmişdir. Bu işdə hazırki baş nazirin xidmətləri əvəzsizdir, danılmazdır.*

*Azərbaycan xalqı, eləcə də Qafqazın qalib lideri Ali Baş Komandan Cənab İlham Əliyev qonşu Gürcüstan xalqının, dövlətinin hər zaman yanında olduğunu dilə gətirib.*



*Təsadüfi deyil ki, ölkəmizdə səfərdə olan gürcü Baş nazir öz çıxışında da özəlliklə qeyd edərək bildirdi:*

***"Siz regionda fərqli bir Lidersiniz və bizim üçün də nümunəsiniz. Siz ölkənizə dövlətinizin mənafelərini qorumaqla rəhbərlik edirsiniz. Bu gün burada olmaq məndə böyük şərəf və məmnunluq doğurur."***

*Bəli, ölkə başçımız tək regionda deyil, həm də dünyada fərqli və düzgün strategiya qurmağı bacaran, son illərdə dünyada baş verən saysız müharibələrin fonunda baxmayaraq ki, bizim torpaqlarda məskən salmışdılar, düşmənin sadə vətəndaşlarına, silahsız insanlara zərər vurmadan nümunəvi müharibə aparmaqla, yalnız hərbi mövqeləri hədəf alaraq əsl döyüş ustalığı göstərərək bütün dünyanın diqqət mərkəzinə düşmüş və özünəməxsus müharibəsi ilə dünya ölkələrinin öz ordularına nümunə kimi göstərilməsinə nail olmuşdur. Bu gün Gürcüstanın baş nazirinin bu çıxışı əslində buna işarə idi və tam hədəfi göstərirdi"*, - deyə Toğrul Allahverdili qeyd edib.

## DAVİT ÇİXELİDZE: "AZƏRBAYCAN-GÜRCÜSTAN ƏMƏKDAŞLIĞI REGİONA KƏNAR MÜDAXİLƏ CƏHDLƏRİNİ NEYTRALLAŞDIRIR"



***"Hökumət başçısının və xarici işlər nazirininin ilk səfərinin Azərbaycana olması bir daha ondan xəbər verir ki, Azərbaycan Gürcüstan üçün birinci dərəcəli strateji tərəfdaş və dost ölkədir".***

Bu sözləri gürcü siyasi ekspert Davit Çixelidze jurnalistlərə müsahibəsində deyib. O bildirib ki, Gürcüstan və Azərbaycan regionda mühüm rol oynayan iki güclü faktordur: *"Gürcüstanın hökumət başçısının və xarici işlər nazirininin ilk səfərinin Azərbaycana olması bir daha ondan xəbər verir ki, Azərbaycan Gürcüstan üçün birinci dərəcəli strateji tərəfdaş və dost ölkədir. Gürcüstan bunu sadəcə sözlə deyil, siyasi addımlarla da göstərir. Baş nazir İrakli Kobaxidze əvvəllər də çıxışlarında bu tərəfdaşlığın region üçün əhəmmiyyətini vurğulayıb. Gürcüstan və Azərbaycan regionda mühüm rol oynayan iki güclü faktordur. Bu regionda həyata keçirilən layihələr eyni zamanda Avorpanın rifahına da təsir edir. Azərbaycan üçün Gürcüstan tranzit baxımından əhəmiyyətlidir. Bizim üçün isə Azərbaycan enerji baxımından kritik dərəcədə önəmlidir. Son illərdə Azərbaycanda sürətli iqdisadi inkişaf Gürcüstana da azərbaycanlı iş adamlarının investisiya marağını artırıb. Bu investisiyalar bizim ölkəmizin iqdisadi vəziyyəti, yeni iş yerlərinin açılması və ölkə büdcəsinə əlavə gəlir baxımından önəmli töhfədir"*. Ekspert Azərbaycan - Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlığının regionda sülhün və sabitliyin qorunması, yeni birgə iqtisadi layihələrin reallaşdırılması baxımından böyük əhəmiyyət daşıdığını vurğulayıb: *"Bu üçtərəfli əməkdaşlıq regionumuzun çəkisini artırır, həmçinin kənar müdaxilələrin neytrallaşdırılmasına xidmət edir. Biz son zamanlar Azərbaycanın daxili məsələlərinə Fransa tərəfindən müdaxilə cəhdlərini gördük. Gürcüstanda da belə cəhdlər edilir və bu hələ də davam edir. Bizim birgə səylərimiz müstəqilliyimizi, suverenliyimizi daha da gücləndirməyə imkan yaradır"*, - deyə ekspert qeyd edib.

# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*



Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az təhlilinin sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

◊ **Göz aça bilməmək** – fürsət, vaxt tapa bilməmək. *İşin çoxluğundan göz aça bilmirəm.*

**Göz (gözlərini) açan gündən (açandan)** – 1) lap körpəlikdən;

2) başa düşəndən bəri, dərk etdiyi vaxtdan.

*Yerdə qalanları isə gözlərini açandan onu Güllücədə görmüşdülər.*

S. S. Axundov.

**Göz açıb yuman saatda** – bir an içində, tez, əlüstü, o saat.

**Göz açıb yumunca** – bir anda, bir an içində. *Göz açıb yumunca işini qurtardı.*

**Göz açmaq** – 1) dünyaya gəlmək, doğulmaq.

*İnsanoğlu bu aləmə göz açdığı gündən bəri;*
*Azadlığın məşəlinə qurban olmuş pərvanətək.*

S. Vurğun.

2) macal tapmaq, imkan əldə etmək, vaxt tapmaq.

*Göz açmağa macalım yoxdur.*

**Göz açmamaq** – macalı, vaxtı, imkanı olmamaq.

*Döyüşdən göz açmayan Rüstəm* [Şərəfi] *unuda bilmirdi.*

M. İbrahimov.

**Göz ağartmaq** – qorxuducu nəzərlə, hədələyici tərzdə baxmaq.

*Niyaz anasına göz ağartdı, Ballı söhbəti kəsdi.*

Ə. Vəliyev.

**Göz atmaq** – gözlə işarə eləmək.

*Göz atdım gözünə, himlədim bəri,*
*Dayandı şir kimi pürvüqar gördüm.*

S. Vurğun.

**Göz bəbəyi** *məc.* – əziz və sevgili sayılan. *Onun göz bəbəyi bir oğlu var.*

**Göz dağı çəkmək** – dərdə salmaq, qüssə vermək, ağır zərbə vurmaq. *Oğlunu öldürüb anasına göz dağı çəkmək.*

**Göz dəymək** – mövhumata görə baxışından ziyan, zərər çəkmək. *Uşağa göz dəyib.*

*Al, yaşıl geyinib durma qarşıda,*
*Yayın bəd nəzərdən, göz dəyər sana.*

Qurbani.

**Göz dəyməsin!**–gözdəymənin qarşısını almaq üçün işlədilən ifadə.

*Dəyməsin göz, qəribə zirəksən,*
*Bu fərasətdə dəhrdə təksən.*

S. Ə. Şirvani.

**Göz dikmək** – 1) bir şeyi ələ keçirmək arzusunda olmaq, sahib olmağa çalışmaq.

**Göz dolandırmaq** – ətrafına baxmaq. *Kərəm göz dolandırıb gördü ki, ovçular iki quzusu olan bir ceyranı vurublar.*

"Əsli və Kərəm".

**Göz dolusu** – fərəhlə, ürəklə, razı halda, şad. *Göz dolusu evini süzdü.*

*Səkinə göz dolusu ərinə baxıb gülümsədi.*

M. İbrahimov.

**Göz etmək (eləmək)** – gözlə işarə eləmək.

**Göz gəzdirmək** – hər tərəfə baxmaq, başdan-ayağa süzmək, nəzər salmaq. *Otağa göz gəzdirmək. Məclisə göz gəzdirmək.*

*Telli həyatın hər tərəfinə göz gəzdirdi.*

S. Hüseyn.

**Göz görə (görə-görə)** – açıq, aşkar, bəlli, gözlə görüldüyü halda. *Göz görə-görə oğurluq etmək.*

*Yalançının dili yandı göz görə-görə,*
*İnanmadı dili alov yaxanlar belə.*

M. Araz.

**Göz götürmək (çəkmək)**– baxmamaq, əl çəkmək.

*Ayrı düşüb ulusundan, elindən,*
*Yenə göz götürməz xublar telindən.*

Q. Zakir.

**Göz götürüb baxmaq –** başını qaldırıb baxmaq, nəzər salmaq.

[Səkinə] *göz götürüb qonaqlara baxa bilmirdi.*

Ə. Abbasquliyev.

**Göz gözə baxmaq** – üzbəüz oturmaq, bir-birinin üzünə, gözünə baxmaq.

*Ələsgər də eşq oduna alışdı,*
*Göz gözə baxanda halın soruşdu.*

Aşıq Ələsgər.

**Göz gözə gəlmək** – baxışları qarşılaşmaq, bir-birinə baxmaq.

**Göz gözü görməmək** – çox qaranlıq, zülmət olmaq, heç bir şey seçilməmək.

[Şahmar bəy:] *Yamanca qaranlıqdır, göz gözü görməyir.*

N. Vəzirov.

**Göz-qulaq olmaq** – ciddi nəzarət etmək, baxmaq.

*Uşaqdan gözqulaq ol! – Göz qulaq ol! – əmrini verdikdən sonra ordugaha döndü.*

H. Nəzərli.

**Göz oxşamaq** – ürəyə yatmaq, gözə xoş gəlmək, ürək açmaq.

*Adamlar göz oxşayan sarı, qırmızı, bənövşəyi çiçək xiyabanı ətrafında dolaşırlar.*

İ. Şıxlı.

**GÖZALTI** *1. is.* Sonradan almaq və ya ərə getmək üçün nəzərdə tutulan qız, yaxud da oğlan.

*Əlbəttə, heç bir gözaltın varmı?*

Ə. Sadıq.

**Gözaltı etmək (eləmək)**–1) sonradan almaq və ya ərə getmək, yaxud bir şeyi sonradan əldə etmək üçün nəzərdə tutmaq. *Qızı gözaltı etmək.*

*Tahir anasının kənddə gözaltı elədiyi qızı yox, Lətifəni sevdiyini yazmışdı.*

M. Hüseyn.

2. *zərf* Başqasına bildirmədən, hiss etdirmədən; gizlincə. *Gözaltı nəzər salmaq.*

*Ətrafında vüqu bulan hər bir şeyə [qadın] gözaltı baxıb diqqət yetirirdi.*

B. Talıblı.

**GÖZAYDINLAMAQ** *f.* Şad bir hadisə və ya xəbər münasibətilə birini təbrik etmək, gözaydınlığı vermək. *Toy münasibətilə gözaydınlamaq.*

*Xəbər tutanlar gəlib bu xoşbəxt ataları gözaydınlayırdı(lar)*

S. Rəhimov.

**GÖZAYDINLIĞI** *is.* Xoş bir xəbər və ya yaxşı bir iş münasibətilə birisini təbrik etmə; təbrik.

*Hər bulaq başında bir söhbət olur,*
*Gah gözaydınlığı, gah qeybət olur.*

S. Vurğun.

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!



***Hörmətli oxucular!***

Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| ა | a | ან | მ | m | მან | ღ | ğ | ღან |
| ბ | b | ბან | ნ | n | ნარ | ყ | ğ* | ყარ |
| გ | q | გან | ო | o | ონ | შ | ş | შინ |
| დ | d | დონ | პ | p* | პარ | ჩ | ç | ჩინ |
| ე | e | ენ | ჟ | j | ჟან | ც | ≈ ts* | ცან |
| ვ | v | ვინ | რ | r | რაე | ძ | ≈ dz | ძილ |
| ზ | z | ზენ | ს | s | სან | წ | ≈ ts | წილ |
| თ | t | თან | ტ | t* | ტარ | ჭ | ≈ tç | ჭარ |
| ი | i | ინ | უ | u | უნ | ხ | x | ხან |
| კ | k* | კან | ფ | p | ფარ | ჯ | c | ჯან |
| ლ | l | ლას | ქ | k | ქან | ჰ | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və * * * yazı hərfləri

### თბილისის მეტროს ისტორია (Tbilisis Metros İstoria) - Tbilisi Metrosunun Hekayəsi

**თბილისის მეტრო საქართველოში ერთადერთი მეტროა.** (Tbilisis metro Sakartveloşi ertaderti metroa) **- Tbilisi metrosu Gürcüstanda yeganə metrodur.**

**იგი 1966 წლის 11 იანვარს გაიხსნა**. (İqi 1966 tslis 11 ianvars qaixsna) **- O, 1966-cı il yanvarın 11-də açılmışdır.**

**პირველი ორი სადგური იყო „დიდუბე" და „რუსთაველი".** (Pirveli ori sadquri iğo „Didube" da „Rustaveli") **- İlk iki stansiya "Didube" və "Rustaveli" idi.**

**შემდეგ დაამატეს „სადგურის მოედანი" და სხვა სადგურები.** (Şemdeq daamates „Sadquris moedani" da sxva sadqurebi) **- Sonra "Vağzal Meydanı" və digər stansiyalar əlavə edildi.**

**თბილისის მეტროს სიგრძე 27 კილომეტრია.** (Tbilisis metros siqrdze 27 kilometria) **- Tbilisi metrosunun uzunluğu 27 kilometrdir.**

**მეტროში 23 სადგურია.** (Metroşi 23 sadguria) **- Metroda 23 stansiya var.**

**ყველაზე ღრმა სადგურია „ავლაბარი".** (Ğvelaze ğrma sadquria „Avlabari") **- Ən dərin stansiya "Avlabari"dir.**

**მეტროში ორი ხაზი მოქმედებს.** (Metroşi ori xazi mokmedebs) **- Metroda iki xətt fəaliyyət göstərir .**

**ხაზები ერთმანეთთან დაკავშირებულია.** (Xazebi ertmanettan dakavshirebulia) **- Xətlər bir-birinə bağlıdır.**

**მეტროში შესაძლებელია მეტროკარტის გამოყენება.** (Metroshi shesadzlebelia metrokartis gamoyeneba) **- Metroda "Metrokart"dan istifadə etmək mümkündür.**

**მეტროკარტა მოსახერხებელი და იაფია.** (Metrokarta mosaxerxebeli da iapia) **- Metrokart rahat və ucuzdur.**

**თბილისის მეტრო სწრაფი და კომფორტულია.** (Tbilisis metro stsrapi da komportulia) **- Tbilisi metrosu sürətli və rahatdır.**

**დღეს თბილისის მეტრო მხოლოდ ტრანსპორტი არ არის. (Dğes Tbilisis metro mxolod transporti ar aris) - Bu gün Tbilisi metrosu yalnız nəqliyyat vasitəsi deyil.**

**ეს ისტორიული მემკვიდრეობაცაა. (Es istoriuli memkvidreobatsaa) - Bu, həm də tarixi bir irsdir.**

**მისი არქიტექტურა ძალიან საინტერესოა.** (Misi arkitektura dzalian sainteresoa) **- Onun arxitekturası çox maraqlıdır.**

**თბილისის მეტრო სტუმრებისთვისაც საინტერესო ადგილია.** (Tbilisis metro stumrebistvisats saintereso adqilia) **- Tbilisi metrosu turistlər üçün də maraqlı bir yerdir.**

**აქ შეგიძლიათ ნახოთ საბჭოთა პერიოდის დიზაინი და თანამედროვეობა.** (Ak şeqidzliat naxot sabtçota periodebis dizaini da tanamedroveoba) **- Burada Sovet dövrünün dizaynını və müasirliyi görə bilərsiniz.**

# II İRAKLİ VƏ XUDU BORÇALI

## (TARİXİ POVEST)

*Bütün Gürcüstanda əzəmətli, cəsur olan Xudu Borçalı.*
**Teymuraz Baqrationi**

*(Əvvəli ötən sayımızda)*

Onlar dad-aman etdilər, pulu yaxın qoymadılar. Hələ bir bu gecə vaxtı onun yola çıxmamasını məsləhət gördülər. Xudu onları inandırmağa çalışdı ki, dəstə üzvəri onu səbirsizliklə gözləyirlər. Odur ki, getməlidir. Onlar da razılaşdılar, çuvalları xurcunvari atın belinə aşırdılar. Bir xeyli də çiy ayı əti qoydular. Oradakı dostlarının yeməsi üçün. Ona üstü küləkdən qorunan lampa da verərək yola saldılar. Ev yiyəsi məmnunluqla irəli durdu və amiranə səslə dilləndi:

— Kəndin arvadlarını yığıb səhər o başdan təndirə od salaraq xamralı bişirtdirəcəyəm, sacda da fətir. Oğlumdan göndərəcəyəm, Mənglisdə dükanların qabağında görüşərsiniz. Lampanı da əgər lazım gəlməzsə, oğluma verərsən. Burda bizə hava, su kimi lazımdır. Di, sən bilirsən, sənə yaxşı yol, Allah üstünnən getsin.

Xudu onlarla xudahafizləşib, atın yüyənindən yapışdı, amma minmədi, çünki bir azdan dar cığırlara, gədiklərə çatanda düşməli olacaqdı.

***

Aleksandre ilə Axaltsixedən Mənglisə gəldik. "...O ərəfədə gecənin birində Təhməzqulu ağa Xudu Borçalını yanına çağırtdırmışdı. Həmin anlar Xudu Borçalı Aleksandrenın yanında idi. O, Təhməzqulu ağaya dedi:

— Təhməzqulu ağa, mən şahzadə Aleksandreyə deməyə ərk edə bilmirəm, mənə qəzəblənər, bəlkə sən səhər tezdən özün bildiyin kimi, deyəsən ki, yeməyimiz daha yoxdur, yaxşı olar ki, yenə də Axaltsixeyə qayıdaq, Kür çayının suyu azalanda, gələk, Kaxetə doğru yollanaq, yoxsa biz acların başına nəsə gələr.

O birisi gün səhər Təhməzqulu ağa şahzadə Aleksandrenin qarşısında dayandı, çox qəmli idi. Şahzadə ondan soruşdu:

— Təhməzqulu ağa, niyə məyussan?

Əvvvəlcə Təhməzqulu ağa ona dedi ki, heç bir şey olmayıb.

İkinci dəfə soruşduqda, Təhməzqulu ağa hər şeyi danışmağa başladı və sakitcə Xudad bəyin nəsihət etdiyini dedi, O, acıqla ona cavab verdi:

— Təhməzqulu ağa, nə söyləyirsən, bu sənin fikrin deyildir, sənə Xudad bəy nəsihət verib. Axı, bir de görüm, necə qayıdım? Yazıq kaxetlilər yurdu uğrunda qan tökürlər və mənə ismarlayıblar ki, "tez özünü yetir, başçımız olsun ki, yurd uğrunda qılınc çalaq". Bundan sonra mən necə qayıdım? Əgər istəyirsinizsə, sən və Xudad bəy gedin və mən burda acından ölüm. Mənim bir ovuc qanım və cəmdəyim, harda istəyir, olsun, canım çıxsa da, burdan bir daha qayıda bilmərəm.

Təhməzqulu ağa ömründə belə biabır olmamışdı. Bir şey deyə bilmədi, ölü kimi idi. Nəhayət, güclə səsini çıxartdı və ərklə ona söylədi:

— Ey şahzadə, narahat olmayın, ac qalmarıq, sənin qadan alım.

Elə həmin an Təhməzqulu ağa otuz nəfərlə gəldi və o biri gün Marabda çöllərindən bir sürü qoyun oğurladı, qabağına qatıb şahzadəyə təhvil verdi, amma o narahat olmuşdu:

— Kimin evini yıxdın, o yazığınmı?

— Qadan alım, artıq əlac yox idi, bəs nə etməli idim? Tanrı sizin istəyinizi yerinə yetirəndə, bu qoyun yiyəsinə birə iki qat mərhəmətlik edin, – deyə Təhməzqulu ağa söylədi.

Şahzadə gülümsəyərək buyurdu:

— Bu sözsüz ki, belə olacaq, əgər Tanrı mənim istəyimi yerinə yetirsə.

Bundan dörd gün sonra bir neçə atlı ilə bir gürcü keşiş gəldi və ondan artıq atın belinə yüklənmiş çörəklə dolu torbalar və tuluqlarda şərab, bişmiş toyuq əti ilə dolu xurcunları şahzadəyə təhvil verdi. Şahzadə biləndə ki, keşişdir, onun əlindən öpdü və soruşdu:

-— Ey keşiş, hara gedirsən?

— Sizin yanınıza gəldim, mənim çarım, eşidəndə ki, siz burdasınız və azuqə ilə sizin yanınıza gəldim, bəlkə lazım gəldi, bir söyləyin ki, mənə burda niyə durursunuz?

— Kürdən keçə bilmədik, daşıb, su çox gəlir, Kaxetə keçmək istəyirdim və burda qalmalı oldum, Kürün suyu soğulana kimi.

Çörək və toyuqları keşiş hamıya payladı. Dörd-beş gün olardı ki, çörəyi gözlərinin ucu ilə də görməmişdilər. Hey qoyun əti yeyirdilər. Çörəkdən məmnun qaldılar. Tatarlar (Azərbaycanlılar) şərab içmirdilər, şahzadə də demək olar ki, on gün olardı ki, heç şərab içmirdi. Amma şərabdan xoşlanırdı. Onun yanında olanlar olduqca yaxşı içirdilər.

Həmin gecə keşiş onları oyatdı və sübh tezdən bir meşəli dərəyə apardı və axşama kimi orada qaldılar. Axşam üstü keşiş harasa getdi, onlar bundan narahat oldular, lakin tezcə də geri qayıtdı və şahzadəyə bildirdi:

— Çay keçidini buldum və nə lazım idisə, yerinə yetirdim, indi buyurun, çay keçidi başlı-başınadır.

Elə həmin an onlar atlandılar və yola düşdülər. Doğrudan da keşiş onları yaxşı bir çay keçidinə apardı. Şahzadə keşişə çox-çox minnətdarlığını bildirdi. Sonra digərləri də ona minnətdarlıqlarını bildirərək xudahafizləşdilər. Axalsixeyə qayıtdılar. O həm də paşaya namə göndərdi. Sən demə, şahzadə o çay keçidinə gedəndə Dimitri Tarxnişvili iki yüz rus kazakını yığıbmış, məhz elə şahzadə Aleksandre üçün. Onun niyyətini bilirdilər və buna görə də o keçidi tutmuşdular ki, o keçməyə idi. Həmin keşişin adamı Dimitrininin yanına gələrək:

*(Davamı növbəti sayımızda)*

**Mirzə Məmmədoğlu,**
**Tədqiqatçı - jurnalist.**

## HÜZN VƏ QÜRURUMUZUN GÜNÜ

20 Yanvar 1990-cı il Azərbaycan xalqının tarixində həm faciə, həm də qəhrəmanlıq nümunəsi kimi əbədi olaraq qalacaq bir gündür. Bu tarix təkcə Azərbaycanın deyil, bütün türk dünyasının azadlıq mübarizəsi yolunda mühüm bir simvoldur.

1990-cı ilin 20 yanvarında baş verən hadisələr xalqımızın iradəsini və azadlıq əzmini heç bir gücün sındıra bilməyəcəyini göstərdi. Həmin gecə Bakıda və Azərbaycanın digər bölgələrində Sovet ordusu dinc insanlara qarşı ağır silahlardan istifadə edərək yüzlərlə günahsız soydaşımızı qətlə yetirdi. Lakin bu, xalqımızın azadlıq mübarizəsini dayandırmadı. Əksinə, həmin gecə şəhid olan qəhrəmanlar müstəqillik yolunda işıqlı bir məşələ çevrildilər.

Gürcüstanda yaşayan azərbaycanlı gənclər olaraq, biz də 20 Yanvar şəhidlərinin xatirəsini böyük ehtiramla yad edirik. Həmin gün təkcə matəm deyil, həm də qürur günüdür. Şəhidlərin bizə miras qoyduğu azadlıq və müstəqillik anlayışını qorumaq, onu gələcək nəsillərə ötürmək hər birimizin borcudur.

20 Yanvar şəhidlərini heç vaxt unutmayacağıq. Onların qanı ilə yazılan qəhrəmanlıq tarixi hər zaman qəlbimizdə yaşayacaq!



**Arzu Əliyeva,**
**İngilis dili müəllimi.**

### 20 YANVAR

## ŞƏHİDLƏRİN XATİRƏSİ ANILDI




18 yanvar 2025-ci ildə Marneuli rayonundakı Azərbaycan Evində 20 yanvar Bakı və 9 aprel Tbilisi faciələrinə həsr olunmuş tədbir keçirilib. Tədbir iştirakçıları Azərbaycan Evinin eyvanında, "Milli Direniş və Azadlığa gedən yol" adlı foto-sərgini böyük kədər hissi ilə seyr etdilər. Tədbir Azərbaycan Evininin təşkilatçılığı və Azərbaycan Diasporuna Dəstək Fondunun (ADDF) dəstəy ilə baş tutdu.

Tədbiri Azərbaycan Evinin müdiri Məhəbbət İmanov açaraq şəhidlərin xatirəsini yad etmək üçün bir dəqiqəlik sükut elan etdi. Tədbirdə Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyinin əməkdaşları Kamil Əfəndiyev və Cavid Məhərrəmov, Türkiyənin Gürcüstandakı səfirliyinin nümayəndəsi Uğur Tahlan, Bütün Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi Hacı Faiq Nəbiyev, Marneuli Bələdiyyəsinin struktur bölmələrinin üzvləri, TIKA-nın Gürcüstan nümayəndəliyinin baş direktoru Zeynəb Bayraq, onun müavinləri Muhammed Emre Ezber və David Kamaşidze, Türkiyənin "MAARIF" Okulları Gürcüstan nümayəndəliyinin baş direktoru Faruk Tekşen və Marneuli şöbəsinin müdiri Murad Kördəniz, Gürcüstan Azərbaycanlıları Konqresinin üzvləri, din xadimləri, ziyalılar və elm adamları iştirak edirdilər.

Məhəbbət İmanov öz çıxışında qeyd etdi ki, 20 yanvar faciəsində 170-ə yaxın şəhid oldu ki, *"onların 6 nəfəri Gürcüstan əsilli azərbaycanlılar idi Tbilisidəki 9 aprel faciəsində isə 21 nəfər gürcü qardaş və bacılarımız şəhid olub, yüzlərlə insan qanunsuz olaraq habs edilib. Şəhidlərimizin qanı yerdə qalmadı, Azərbaycan torpaqları işğaldan tam azad olundu və bu gün şəhidlərimizin ruhları şaddır. Biz əminik ki, yaxın gələcəkdə Gürcüstanımızın işğal edilmiş 20% torpaqları da azad ediləcək, Abxaziya və Cənubi Osetiya qaçqınları öz doğma, tarixi torpaqlarına qayıdacaqlar"*. Tədbirdə Türkiyənin "MAARIF" Okullarının Gürcüstan nümayəndəliyinin baş direktoru Faruk Tekşen, Marneuli Bələdiyyə Məclisinin üzvü Anar Piriyev, Azərbaycanın əməkdar jurnalisti Nizami Məmmədzadə, Dmanisi Tədris və Təhsil Mərkəzinin rəhbəri Kamran Xıdırov, Qafqaz Hüquq və İnteqrasiya Mərkəzinin rəhbəri Rezo Həsənov, Qardabani Təhsil və inteqrasiya Mərkəzinin rəhbəri Raul Əliyev, Azərbaycan dili və ədəbiyyat müəllimləri Növrəstə Məhərrəm qızı, Sevda Şahverdiyeva, Marneulidəki Qaçağan 2 saylı məktəbin müəllimi Esmira Ələkbərli, Bolnisinin Talaveri (Faxralı) 1 saylı ictimai məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi şairə Fatma Aslan (Əliyeva) çıxış edərək bu günlərin əhəmiyyətini bir daha diqqətə çatdırdılar.

Sonda Bolnisi Bələdiyyəsinin Talaveri (Faxralı) kəndindəki 1 saylı məktəbin şagirdləri 20 yanvar və 9 aprel faciələrinə həsr olunmuş şeirlər söylədilər.

Tədbirin sonunda Şəhidlərin ruhuna ehsan süfrəsi açıldı.



**Şamil Ziyadəliyev,**
**"Gürcüstanın" xüsusi müxbiri.**

Zəlimxan Yaqub — 75

# SƏNSİZ YAŞAMAĞA ÖYRƏŞMƏK ÇƏTİN...

2013-cü ilin avqustayı idi. Zəlimxan Yaqub Borçalıda – doğma Kəpənəkçi kəndində ata ocağında, mən də öz kəndimizdə – Darvazda idim. Bir gün şairə baş çəkməyə gəldim. Həyətdə oturub nəsə yazırdı. Görüşüb hal-əhval tutduqdan sonra əlindəki dəftəri mənə uzadıb, – Al, bu şeiri oxu, bu gecə yazmışam, – dedi. Şeirin başlığı beləydi: "Mənsiz yaşamağa öyrəşin daha". Oxudum və çox kövrəldim. Aman Allah, şair bizlərə – onu sevənlərə nəyi məsləhət görür?! Bizi özünün aramızda olmayacağı günlərə hazırlamaq istəyir. O an keçirdiyim hissləri ondan gizlətməyə çalışsam da, ruhumu saran vahimədən qurtula bilmədim.

Deyirlər, kədəri böldükcə azalır. Amma 2016-cı il yanvarın 9-da ildırım sürəti ilə dildən-dilə, eldən-elə yayılan acı xəbər bölündükcə azalmaq əvəzinə, daha da böyüyüb, Azərbaycan boyda oldu, bütün Türk dünyasını bürüdü. Bu dünyadan Zəlimxan Yaqub köçdü. O, ölümüylə də özünün böyüklüyünü, dahiliyini sübut etdi...

Bu gün 75 illik yubileyinə hazırlaşdığımız Zəlimxanın dünyasını dəyişməsindən 9 il keçir. Daha doğrusu, Zəlimxansız dünyamızın 9 yaşı tamam olur. Aradan ötən bu illər də sübut etdi ki, Zəlimxan Yaqubu poeziyamızın, Azərbaycan xalqının başucalığı sayan, onu poeziya hökmdarı hesab edən Xalq şairi Xəlil Rza Ulutürk hələ illər öncə *"Zəlimxan yeganə şairdir ki, Azərbaycanda heç bir təbliğata ehtiyacı yoxdur"*, – deyəndə nə qədər haqlıymış.

*"Mənim ölümüm də gözəl olacaq"*, – deyirdi və aramızdakı cismani yoxluğuyla da sübut elədi ki, doğrudan da, "diri ölülərin" dünyası olmur, bu dünya elə onun özü kimi əbədi dirilərindir. Şair bu qənaətə gəlməkdə nə qədər haqlıymış:

El yadda saxlamaz evdən gedəni,
İnsan əzizlənər eldən gedəndə.

Zəlimxan Yaqub yaşadığı qısa ömürdə zamana öz sözünü deyərək adını millətin, Vətənin tarixinə yazmağı bacardı, Tanrının qismətinə yazdığı ömrü – zaman kəsimini ləyaqətlə yaşadı:

Ürəyində buz yaşamaq faciə,
Yarasında duz yaşamaq faciə,
Çox yaşamaq, az yaşamaq faciə,
Mən zamanı zamanında yaşadım.

Zəlimxan Yaquba görə, haradan gəldiyini bilməyənlər, istər söz adamı olsun, istərsə də, digər peşə sahibləri, hara getdiklərini də bilməyəcəklər. Onu elin-obanın, milyonların sevimlisinə çevirən və adını dünyanın əbədi diriləri sırasına yazdıran da elə həm həyatda, həm də ədəbiyyatda həmişə öz yerini bilməsi, hər zaman özünün və sözünün urvatını qoruması, dününənə, kökünə, ənənəyə bağlılığı, zamana öz sözünü deyə bilməsi idi:

Dünya mənim idi mən olmamışdan,
Bilirəm dünyaya mən nəyə gəldim.
Yazıldı alnıma sözün qisməti,
Sözümü zamana deməyə gəldim.

Bəli, o, sözünü zamana deməyə gəlmişdi, dedi də. Xalqın sözünü dedi, xalqın qəlbinə nüfuz edən sözü dedi. Ona görə də hər yerdə sevildi, dinlənildi, dediyi söz həm yuxarılarda, həm də aşağılarda eşidilən oldu. Ancaq daha çox yaza, daha çox deyə bilərdi. Böyrək problemindən əziyyət çəksə də, onu ağrıdan yalnız bu deyildi. Ruhu bu qədər diri, iradəsi möhkəm, dözümü sərt olan bir adama xəstəlik neyləyərdi ki... Bədəninin ağrısına dözsə də, Vətən ağrılarına dözə bilmirdi şair.

Onun dərdi bütöv Vətən dərdi, Qarabağın işğal altında olan torpaqları, böyük Türk dünyasının üzləşdiyi problemlər idi. Bu ağrılar onun ürəyində sözə çevrilib, misralara düzülürdü. Bəlkə də həkimlər böyrəklərini ona görə müalicə edə bilmirdilər ki, ürəyindəki Vətən dərdi daha böyük idi. "Qışın içində də yaz" tapmağı bacaran Zəlimxan Yaqub bu dərdinə çarə tapa bilmirdi. Bu dərdin adı "Yurd ağrısı", "Vətən yaraları", "O qızın gözyaşları" və "Şuşa şikəstəsi"ydi, bu dərd idi ona "Qarabağ ən çətin sualdı, qardaş", "Türk yağıdan üzr istəməz" və "Bir kövrək havadı sazımda Kərkük" dedirdən, "Şuşada balam qaldı" deyə nalə çəkdirən, "Şair harayı"nı, "Səslərin görüşü"nü, "İçimdə ağlayan Krım"ı, "Çanaqqala dastanı"nı, "Turan sevgisi"ni, "Rəsul Həmzətova məktub"u yazdıran da, "dərdli dilim – mənim dərdim", – deyib, Göyçə, Dərbənd, Mosul, Kərkük, Borçalı və "Borçalının bir tərəfi Axıska" kimi "Vətənin qıraqda qalan yerləri"nin dərdlərini bayatı düzümünə düzdürən də.



Qarabağa qayıtmağımızı öz gözləri ilə görmək, bir qalib kimi Şuşa qalasına hayqıra-hayqıra girmək, Cıdır düzündən nur alıb Vaqifin müqəddəs məqbərəsində Vaqifin dilində ötmək, İsa bulağının başında muğamat dinləmək, Daşaltı çayıtək axmaq istəyirdi. Əsrin min bir sualı ilə üz-üzə qalıb cavab tapmağa çalışan, ona qələbə müjdəsi gətirənə ömrünü pay kimi bölmək istəyən şairin bir nigarançılığı vardı:

Yoxsa bu ağrıyla dünyadan köçüb,
Elə bu dərdlə də öləcəyəmmi?

Bununla belə, ümidini də üzmürdü. İnanırdı ki, dərdinin çarəsini Azərbaycan ordusu tapacaq:

Doğan günəşidir sökülən danın,
Alar qisasını tökülən qanın,
Ucaldar başını Azərbaycanın
Qələbə, Qələbə, ancaq Qələbə.

Özü görə bilməsə də, arzuları çin oldu, Qarabağ işğaldan azad edildi. Bu gün Qarabağda böyük tikinti-abadlıq işləri görülür, qaçqınlar öz yurd-yuvalarına qayıdırlar. Bu günləri görmək qismət olsaydı, indi nələr yazardı şair...

Xəstəlik təkcə ona ağrıların dadını, dərmanların adını öyrətmədi, həm də insanları tanıtdı. Gen günün "dostlarını" və əsl dostları tanıdı, bütün insanları "süzüb ələdi", nurda işıqlanıb, yurda işıq salan dostlarla yanaşı, xırdalanan "xırda dostları" da görəndə, Uca Allaha – *"Böyük dosta salam olsun!"*, – dedi:

İşıqlandı nurda dostlar,
İşıq saldı yurda dostlar,
Xırdalandı xırda dostlar,
Böyük dosta salam olsun.

*"Mən bir dağ çayıyam"*, – deyib, bütün ömrü boyu çağlayan şair həmişə diri və duruydu, bu dünyanın çirkinlikləri onu bulaşdıra bilməmişdi, hər şeydə gözəllik axtarıb dünyamızı gözəl görmək istəyir, dünyanı durultmağa can atırdı. "Biz niyə sevməyək bir-birimizi?" – deyərək, insanları səmimiyyətə, məhəbbətə, dostluğa və mehribanlığa səsləyirdi. Dünyanın gərdişi ilə bacarmayıb, dərdini çəkə bilməyəndə isə sözün qüdrətinə söykənib onun şəklini çəkirdi:

Dərdini çəkə bilmirəm,
Gəl, şəklini çəkim, dünya...

Özünün və sözünün əbədiyaşarlığına inanır və deyirdi ki, "mənim yazdıqlarım yerdə qalarmı, düşəcək hamısı kitaba bir-bir". Bu inamı yaradan bir də o idi ki, milyonların könlündə onun yeri və kitabı var:

Daha gecdi, könüllərdə kitabım var,
Qat-qat olan qayaların qaşı qədər.
Daha gecdi, zaman məni dana bilməz,
Yaşamışam bu dünyanın yaşı qədər.

Şərqin məşhur filosofu Cəlaləddin Ruminin belə bir sözü var: *"Biz öləndən sonra bizim məzarımızı torpaqlarda axtarmayın. Bizim məzarımız arif insanların qəlbindədir"*.

Məzarı onu sevənlərin qəlbində olan bu böyük insan üçün darıxanda, daha doğrusu, üzbəüz olub söhbət eləmək istəyi könlümdən keçəndə, onun kimi möhtərəmlərin uyuduğu Fəxri Xiyabana üz tutur, ağ mərmərdən boylanan əzəmətli simasıyla üzbəüz dayanıram. Məğrur duruşu və qartal baxışıyla sanki oxucularına, sevənlərinə və sevdikllərinə təsəlli verir:

Canım qara torpağın, nəfəsim göylərindir,
Qəbirdə yatsam belə, həmişə həyatdayam.

**Musa NƏBİOĞLU,**
**Əməkdar Mədəniyyət işçisi.**

# "CƏNNƏTDƏKİ DOĞUM GÜNÜN MÜBARƏK!"



21 yanvar mərhum Xalq şairi Zəlimxan Yaqubun doğum günü idi. Yaşasaydı, bu gün 75 yaşı tamam olardı. O, Allah-Taalanın bəxş etdiyi alın yazısını, taleyini əsl İnsan kimi, əsl Şair kimi yaşadı. Xalqının hörmət və rəğbətini, sevgi-məhəbbətini qazandı, xatirəsi ilə qəlblərdə ölməzliyə, əbədiyaşar varlığa çevrildi. Sağlığında elm adamları, saz-söz sevərlər, sadə insanlar tərəfindən nə qədər sevilirdisə, ölümünə ondan da çox yanıb yaxılırlar...

Klassik və çağdaş Azərbaycan ədəbiyyatının zəngin şeir ənənə və janrlarını yaşadan, əzbər bilən, poeziyamızın görkəmli nümayəndəsi, söz aləmində erkən ahıllaşan, aşıq sənətində Ustad sənətkarlarla bir sırada dayanan Xalq şairi Zəlimxan Yaqubdur... Son illərdə ağır xəstəlik Zəlimxan ömrünün ahıl dövrünü, yaşamaq istəyini, yaradıcılığının çiçəkləndiyini, yazıb yaratmaq həvəsini, istək və arzularını həyata keçirmək şövqünü yarıda qoydu... O, uzun və mənalı ömür sürmək, könül oxşayan şeirlər yazmaq, ailəsinə qayğı göstərmək, nəvə-nəticə böyüdüb toyunu görmək, vətənin, millətin problemlərindən yazmaq istəyirdi. Bütün işlərini həyata keçirmək istəyini "gözlə qaş arasındakı" ölüm yarımçıq qoyub əbədiyyətə qovuşdurdu. Xeyirxah əməlləri, müqəddəs arzuları qarşısında ömrü "vəfa" etmədi. ..."Ölüm" adlı qaçılmaz bir həqiqət sağlam, "buz baltalı", polad iradəli, şaqraq gülüşlü, pəhləvan gövdəli, kövrək qəlbli, həssas və duyğulu, fitri istedad və qeyri-adi yaddaşlı Zəlimxan Yaqub ömrünün qapısını erkən döydü...

Əbədiyaşar şairimizə dost ərmağanı kimi ithaf etdiyim şeiri diqqətinizə təqdim edirəm.

**CƏNNƏTDƏKİ DOĞUM GÜNÜN MÜBARƏK!**

Zimistanda günəş kimi doğuldun,
Cənnətdəki doğum günün mübarək!
Tay-tuşundan seçilən bir oğuldun,
Cənnətdəki doğum günün mübarək!

Bu dünyaya göz açdığın günündü,
Təntənəli yubileyin, ilindi.
Yerə, göyə heç sığmayan dilindi,
Cənnətdəki doğum günün mübarək!

Yaşasaydın yetmiş beşi görərdin,
Gözəlliyə sözdən çələng hörərdin.
Sinəndə saz danışardın, dinərdin,
Cənnətdəki doğum günün mübarək!

Əzəl gündən şölə saçdın ellərə,
Tərif dedin çəmənlərə, güllərə.
Dastan oldun dodaqlara, dillərə,
Cənnətdəki doğum günün mübarək!

Gələcəyə imanınla baxardın,
Şimşək kimi gurlayardın, çaxardın.
Telli sazla yandırardın, yaxardın,
Cənnətdəki doğum günün mübarək!

Könlü, gözü halal oldu, tox oldu.
Müxənnətə kaman oldu, ox oldu.
Yəhyaoğlu, şair bu gün sağ oldu,
Cənnətdəki doğum günün mübarək!

**Əlixan Yəhyaoğlu,**
**Şair, publisist.**

YUBİLEY

# DARVAZDAN DOĞAN GÜNƏŞIN ŞƏFƏQLƏRİ BAKIDAN BORÇALIYA DÜŞƏNDƏ




Şəxsən həyatda tanımasam da bildiyim bir şey var: bu insanın Gürcüstanda Azərbaycan ədəbiyyatı, mətbuatı üçün etdikləri əvəzsiz!!!

Az yaşdan başlayan mənəviyyat təbliği yarı yaşda zirvə həddinə çoxdan çatıb…

O Borçalımızın Darvazında 55 il əvvəl dünyaya gəldi, 1970-ci il, 22 yanvarda. Xoş Bəxt körpə kimi. O xoşbəxtliyin çığırı hələ verilən adın seçimində idi. Gənc valideynlər üçün körpəni hələ kənddə böyütmək maddi tələbat idisə, fövqündə bir hikmət vardı; TƏSADÜFÜN YARATDIĞI ZƏRURƏT.

Çingiz Aytmatov yazır ki, uşaqlığın keçdiyi torpaqdır Vətən! Bəlkə elə dediyim zərurət bu idi ki, atası Mədəd Çobanov müxtəlif vəzifələrdə olsa da, TORPAQDAN bağını qırmadı. Balaca Müşfiq elə ata - baba yurdunda --- Darvaz orta məktəbində şagird oldu. Atası "raykomluqda işləyən" uşaq olsa da, ətrafından fərqlənmədi, kənd uşaqları ilə birlikdə yemlik yığmağa, quzu otarmağa getdi. Novruzda lopa tutdu, "Mayovkada" dağlara çıxdı. Orta məktəbi fərqlənmə ilə bitirəndə o sıradan bir məzun deyildi, həm də İnstitut müəllimi, alim Mədəd müəllimin oğlu idi. Müstəqil həyat üçün o tək əlaçı məzun yox, həm də torpağa, Vətənə bağlı bir növcavan idi. Zamanın tələbi kimi Rus dili mükəmməliyi, Gürcü dili dərinliyi ilə gələcəkdə bir araşdırmaçı olmaq istədi. Beləcə, A.S. Puşkin adına Tbilisi Dövlət Pedaqoji İnstitutunun Rus filologiyası fakültəsinə qəbul oldu. Bununla da qənaətlənmədi, həmçinin həmin institutun ictimai elmlər fakultəsində paralel olaraq, jurnalistikia ixtisasına da yiyələndi və oranı da fərqlənmə diplomu ilə bitirdi.

Siyasi gərginliklərin tüğyan etdiyi bir zamanda dövrünə uyğun olaraq bir hərbi sovet əsgəri yolu da keçməliydi. Keçdi də…

Gürcüstan Ziyalı Milli Elitasında professor Mədəd Çobanov Şəxsiyyəti vardı. O yolla da gedib uğur əldə etmək asan olardı.

Gənc Müşfiq tələbə kimi Tbilisini seçsə, edə biləcəklərinin geniş vüsətini Bakıda gördü və təhsilini N.Tusi adına Pedaqoji Universitetin filologiya fakültəsində davam etdirdi. Ənənəsinə sadiq olaraq, buranı da fərqlənmə diplomu ilə bitirdi.

Tələbə ikən Azərbaycan Texniki Universitetinin "Ziya" qəzetində müxbir kimi fəaliyyətə başladı. Bu, jurnalistikaya ilk addımlar idi. Bu addımlar onu tədricən pillə-pillə ucaltdı. Qəzetdə məsul katib, bədii redaktor kimi vəzifələrdən həmin qəzetin 2012-ci ildən bəri baş redaktoruna qədər apardı.



Texniki Universitet onu özünə bir müddət Az. TU-nun mətbuat şöbəsinin müdiri və "AzTU Press" nəşriyyatının redaktoru vəzifələrini etibar etdi.

Həmçinin, Texniki Universitetin "Hümanitar fənlər" kafedrasında pedaqoq kimi bakalavrlara "Azərbaycan dili", "Nitq mədəniyyəti", magistrlərə isə "Pedaqogika" fənlərini tədris etdirdi.

Rəsmi şəkildə Texniki Universitetdə işləsə də, eyni zamanda müxtəlif qəzetlərdə -- 1993-cü ildə "Təhsil", 1995-ci ildən "Azad Azərbaycan", "Şərqin səsi", "Elm və təhsil" qəzetlərinin baş redaktoru olub.

İşinin bilicisi kimi, Azərbaycan Respublikası "Təhsil" Elm və istehsalat Mərkəzinin və "Borçalı" Nəşriyyat - Poliqrafiya müəssisəsinin təsisçisi və baş redaktoru olub.

"Zim.AZ" və "ziyaz.info.az" saytlarının Baş redaktorudur.

AzTv də yayımlanan "Dastan", "Yazı" , "Sazın -sözün sehri", "Aşıq Pəri Məclisi", "Borçalı elləri" xalq yaradıcılığı verilişləri, həmçinin bir neçə filmin ssenari müəllifi və redakroru olub.

Aymatovun dediyi torpaq sevgisi yaradıcılıq şaxələrində özünü göstərirdi. Bu qədər zəhmətli işlər sırasında bədii yaradıçılığa zaman da ayırmaq üçün torpaq ətrini hiss etmək, o yaddaşdan qaynaqlanmaq lazım olacaqdı. 1986 -cı ildən bəri mətbuat orqanlarında gedən bir sıra hekayələri və "Məhəbbət həyatdır" povesti kitab halında 1995 - ci ildə çap olundu.

Müşfiq Borçalı dissertant kimi Nizami adına Ədəbiyyat İnstitunda "Gürcüstanda nəşr olunan Azərbaycan mətbuatında ədəbiyyat məsələləri" mövzusunda dissertasiya müdafiə elədi (1993).

2016-cı ildə isə "Gürcüstan" da Azərbaycan ədəbiyyatının inkişaf meyilləri—(1960-2010)"mövzusunda doktorluq dissertasiyasını müdafiə edib (1918). AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutuna doktorant kimi qəbul olub.

Müşfiq müəllimin təşkilatçılığı və zəhmətinin bəhrəsi olan onlarla bədii, xalq yaradıcılığı, ensiklopedik kitablar işıq üzü görüb. Bu qədər gərgin iş rejmiylə hər addımında borçalıları, onların seçilmiş bədii, bioqrafik, tarixi yazıları silsilə halında dərc etdirir.

Azərbaycan Respublikasının Milli Məclisinin Təhsil və Mətbuat haqqında qanunlar hazırlayan işçi qrupunun üzvü olub və qanunların hazırlanmasında yaxından iştirak edib

Bəli, az yaşda Milli Məclis kürsüsündən çıxışı qürurumuz oldu.

Azərbaycan gənclərinin, müəllimlərinin, jurnalistlərinin, Mətbuat Şurasının qurultaylarında nümayəndə olub.

Dəfələrlə Fəxri Fərmanlara, Diplomlara layiq görülüb. “Abdulla Şaiq”, “N.Nərimanov”, "Zirvə", "Zəfər" və iki dəfə "Qızıl Qələm" mükafatına layiq görülüb.

Xaricdə keçirilən bir çox konfrans və simpoziumlarda iştirak edib və birinci dərəcəli mükafatlara layiq görülüb.






Onun araşdırmalarından bir çox elmi işlərində gənclər istifadə edib və bunu qeyd ediblər.

Alimlikdən müxbirliyə, redaktorluqdan naşirliyə keçdiyi hər addımda Borçalı olduğunu yurduna əməliylə xatırlatdı.

Müşfiq Borçalı 2024-cü il, may ayında Azərbaycan Respublikası Prezidentinin təqaüdünə layiq görülüb.

Saytında, qəzetində, dərc olunan kitablarında, yazdığı ssenarilərdə döndü, dolaşdı Borçalıdan keçdi.

2024-cü ildə ilk dəfə Gürcüstanda Azərbaycandilli məktəblər üçün inşa müsabiqəsi təşkil etdi. O müsabiqənin o qədər böyük bir mənəvi dəyəri vardı ki...şagirdlərin araşdırmaçılığı, həvəslə qatılmaları, maraqla nəticə gözləmələri, aldıqları mükafatların dəyəri isə onlar üçün əvəzsiz idi.

Hörmətli Müşfiq müəllim!

Sizin hamıya məlum titullarınızı bir daha təkrarlamaqla Gürcüstanda Azərbaycandilli məktəblərin qürurverici məzunu kimi, bütün məktəblərimizin müəllim və şagirdləri adından təbrik edirəm!

Başladığınız yolu elə bu addımla, bu sürətlə getməyi arzu edirəm!

Sabahkı yolunuzun işığı dünəndən parlaq olsun, o işığın nuru daim yurdumuzu işıqlandırsın.

Yorulmayasız!!!

**Esmira Ələkbərli**, Müəllim.

***“Gürcüstan” qəzetinin kollektivi tanınmış ziyalı, məşhur jurnalist və naşir, dəyərli eloğlumuz Müşfiq Mədəd oğlu Çobanovu (Müşfiq Borçalını) 55 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, uzun ömür cansağlığı, yaradıcılıq uğurları və ailə xoşbəxtliyi arzulayırıq.***

# NİYYƏTİN HARA MƏNZİLİN ORA...

Hər şey ibtidai sinifdə oxuyarkən, məsum bir uşaqlıq arzusundan başladı. Qarşıda illər var idi ki, məktəbi bitirəm, amma o vaxtlar universitetin nə olduğunu belə tam anlamadan xəyalını qururdum. Ailəm və qohumlarım arasında heç kəs ali təhsil almamışdı, buna görə də universitet haqqında demək olar ki, heçnə bilmirdim. Bu mənim üçün yalnız bir söz, çox uzaq və əlçatmaz bir dünya idi. İlk eşitdiyim universitet adı isə İvane Cavaxişvili adına Tbilisi Dövlət Universiteti oldu. Hər kəs deyirdi ki, ora yalnız yüksək bal toplayanlar qəbul ola bilər. Bu, mənim üçün yalnız bir arzu idi, amma hər gün ağlımda bir sual dolaşırdı “Görəsən, mən də bir gün ora daxil ola bilərəmmi”?

İvane Cavaxişvili adına Tbilisi Dövlət Universiteti (TDU) 26 yanvar 1918-ci ildə təsis edilmişdir. Bu, Qafqaz regionunda yaradılmış ilk müasir universitetdir. Universitetin yaradılması təşəbbüsünü görkəmli gürcü tarixçisi, alim və ictimai xadim İvane Cavaxişvili və onun həmkarları irəli sürmüşdülər. Bu universitet, xüsusilə XIX əsrin mürəkkəb tarixi dövrlərində Gürcüstanın elmi və mədəni irsinin qorunmasında böyük rol oynamışdır.

Bu zəngin tarixin bir parçası olmaq və bu divarlar arasında təhsil almaq mənim üçün böyük bir qürur olardı.

XI sinifə başladıqda rayonda gənclər üçün əlavə dərs kursunun açıldığını eşitdim. Gedib adımı yazdırdım, amma imtahana getmək şansım olmadı. Bir gün isə facebookda anidən kursla bağlı bir elan gördüm. Elanda kitab oxuma müsabiqəsi olduğunu qeyd etmişdilər və yarışmaya yalnız iki gün qalmışdı. Kitabın pdf formasını tapıb həmin gecə oxumağa başladım. İki gün ərzində kitabı oxuyub bitirdim və imtahana getdim. Cavablar çıxdı və yüksək bal topladım. Sonra zəng gəldi buyurub gəlib sertifikatınızı götürün.

Getdim mənə niyə kursun şagirdi olmadığımı soruşdular məndə kursa qəbul zamanı imtahanlara qoşula bilmədiyimi dedim. İmtahana ehtiyac yoxdur yarışmada göstərdiyini səy üçün dərslərə gələ bilərsiniz dedilər. Məmnuniyyətlə qəbul etdim və dərslərə başladım.

Hər gün məktəbdən sonra kursa gedirdim. Yol çox uzaq idi və evə gedib qayıtmağa vaxtım olmurdu. Səhər saat 8-də evdən çıxır, axşam qaranlıq düşəndə evə dönürdüm. Bu müddətdə nə qədər yorulduğumu, nə qədər çətinliklər yaşadığımı heç vaxt unutmayacağam. Bütün yay boyu bu maraton davam etdi və artıq universitet haqqında müəyyən biliklərim vardı.

XII sinfə başlayanda artıq abituriyent idim. Qəbul imtahanına hazırlaşmalıydım və xəyalımdakı universitetə daxil olmalıydım. Mənim üçün artıq hər şeyin əvvəlki kimi olacağını düşünmək mümkün deyildi. Hər gün ev, məktəb, hazırlıq dərsləri deyərək qaça-qaçda olurdum. Yaz aylarında imtahanın qeydiyyatı başladı. Gürcü dili hazırlıq müəllimim mənə təklif etdi ki, 4+1 imtahanından əlavə birbaşa qəbul imtahanında da iştirak edim və şansımı sınayım. Fikrim qarışıq olsa da, qərar verdim və qeydiyyat üçün ödənişi öz zəhmətimlə qazandığım pulla ödəmək istədim. Qəzetdən aldığım qonorarım 40 lari idi və həmin pulla qeydiyyatdan keçdim.

Hər gün 14-15 saat dərs oxuyurdum. Hər anı xəyalıma bir addım daha yaxınlaşmaq hissi ilə yaşayırdım. Həyatımın ən stressli günləri isə imtahan cavablarını gözlədiyim vaxtlardı. Bir tərəfdən bütün bunların mənim üçün nə demək olduğunu düşünürdüm, digər tərəfdən isə göz-lədiyim nəticələri görə bilməyəcəyim



qorxusuyla yaşayırdım. Nəhayət, cavablar çıxdı və gözlərimə inana bilmədim, sevincdən gözlərim doldu xəyalım artıq bir reallığa çevrilmişdi. O anı heç vaxt unutmayacağam çünki, bu sadəcə mənim üçün imtahan nəticəsi deyildi, illərdir ürəyimdə bəslədiyim xəyalım idi. Həmin cavablarla Tbilisi Dövlət Universitetinin birinci kurs tələbəsi oldum.

Yorucu və çətin günlər geridə qalmışdı, amma bununla yanaşı, həyatdan bir dərsimi yenə almışdım əzmin, iradənin və məqsədin gücünü. Bu yol mənə öyrətdi ki, insan qarşısına qoyduğu məqsəd üçün çalışmaqdan çəkinməməli, əzmlə irəliləməlidir. Xəyalım mənə yol göstərmişdi və o yol, hər şeyə dəyərdi. Bu hekayə təkcə mənim üçün deyil, hər kəsin öz məqsədlərinə çatması üçün bir nümunə olmalıdır. Çünki arzularımız bizdən mətinlik, səbir və inam tələb edir. Unutmayaq həyatdakı hər məqsəd əzmin və inamın gücü ilə gerçəkləşir.

**Aytən Fətullayeva,**
**Tbilisi Dövlət Universitetinin tələbəsi.**

GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

17 yanvar 2025-ci il "SAKARTVELOS RESPUBLİKA"

## Qldaninin balaca gölünün yeni həyatı

Tbilisi meriyasının Ətraf Mühitin Mühafizəsi Departamenti kiçik Qldani gölünün ətrafında rekreasiya zonası təşkil edir.

Sözügedən ərazi təxminən yeddi hektar təşkil edir 37 min kvadratmetr sahədə parkın abadlaşdırılması işləri aparılır. Qalan ərazini su əhatə edir.

İşlər Tbilisi merinin müavini Andria Basilaia və Şəhər Ətraf Mühitin Mühafizəsi Xidmətinin rəhbəri Paata Toqonidze tərəfindən nəzərdən keçirilib.

Bu mərhələdə beton yollar, uşaq meydançaları, işıqlandırma sistemi qurulur. Əraziyə münbit torpaq qarışığı daşınır. Yaxın vaxtlarda göldə estakadanın tikintisinə, idman meydançalarının və suvarma sistemlərinin quraşdırılmasına başlanacaqdır.

İşlər çərçivəsində videomüşahidə və işıqlandırma sistemləri, uşaq meydançası, heyvanların gəzinti meydançası, futbol və basketbol meydançaları nəzərdə tutulub. Velosiped və piyada yolları da salınacaq ki, bu da yol kənarındakı yaşıllıq zolağının ətrafını əhatə edərək ona bir növ, ada forması verəcək. Əraziyə stullar və zibil qutuları qoyulacaq.

Göl təmizlənəcək və oradan maraqlı dizaynlı estakada keçəcək, buradan quşları və ətraf mühiti seyr etmək mümkün olacaq. Ərazidə müxtəlif növ tinglər əkiləcək, ot səpiləcək. Səki meydança abadlıq işləri də quraşdırılacaq ki, bu da təbii olaraq mövcud mənzərəyə qarışacaq. Park fiziki məhdudiyyətli insanlar üçün da uyğunlaşdırılacaq.

## Ukraynanın bərpa edilməsi üçün onlarla il və yüzlərlə milyard dollar lazım olacaq

Donald Trampın dövlət katibi vəzifəsinə namizəd Marko Rubio bildirib ki, Rusiya qüvvələrini Ukraynanın 2022-ci ilə qədərki mövqelərinə qaytaracağına inanmaq "real deyil".

Onun sözlərinə görə, Ukraynanın infrastrukturu o qədər sürətlə məhv edilir ki, onun bərpası yaxın onilliklərdə yüz milyardlarla dollara başa gələcək.

Marko Rubio bəyan edib ki, ABŞ-nin məqsədi müharibəni bitirmək olmalıdır, lakin mövcud vəziyyət real qiymətləndirilməlidir.

Onun sözlərinə görə, hər iki tərəf - Ukrayna və Rusiya güzəştə getməli olacaq.

*"Bu müharibə bitməlidir və mən hesab edirəm ki, bu, ABŞ-nin rəsmi siyasəti olmalıdır - biz müharibənin bitməsini istəyirik. Hər kəsin vəziyyətə real baxması vacibdir. Rusiya Federasiyası güzəştə getməli olacaq, həm də ukraynalılar"*, - deyə dövlət katibi vəzifəsinə namizədliyi irəli sürülmüş Marko Rubio bildirib.

17 - 23 yanvar 2025-ci il "VEÇERNİY TBİLİSİ"

## Gürcüstanın qızıl ixracı

BPN Milli Statistika xidməti "Sakstata" əsaslanaraq bəyan edib ki, Gürcüstanın qızıl ixracı 2024-cü ilin yanvar-noyabr aylarında 2023-cü ilin eyni dövrü ilə müqayisədə 20 faiz, 2012-ci illə müqayisədə isə 15 faiz artıb.

Gürcüstanın qızıl ixracı son 13 ilin ən yüksək səviyyəsinə çatıb - 2024-cü ilin ilk 11 ayında Gürcüstan 96,2 milyon dollar dəyərində 2,4 ton qızıl ixrac edib. Bu rəqəm 2012-ci illə müqayisədə 15 faiz çoxdur.

Əvvəlki illərdə olduğu kimi, 2024-cü ilin yanvar-noyabr aylarında işlənməmiş və ya yarım emal olunmuş və ya toz halında qızıl əsasən İsveçrəyə (2,25 ton) ixrac edilib. Bundan əlavə, Türkiyəyə (0,13 ton) və BƏƏ-yə (0,02 ton) az miqdarda məhsul ixrac edilib.

Dünyada qızılın bahalaşmasından sonra Gürcüstan qızılının ixrac dəyəri də 23,7 faiz artıb. 2023-cü ildə bir ton gürcü qızılı orta hesabla 32,4 milyon dollara başa gəlib, 2024-cü ilin yanvar-noyabr ayları üçün orta ixrac qiyməti isə 40,1 milyon dollara yüksəlib.

Qeyd edək ki, 2024-cü ilin yanvar-noyabr aylarının məlumatına görə, Gürcüstan qızılı 3,7 faizlik payla ən böyük ixrac malları siyahısına daxil edilib və səkkizinci yerdədir.

## Bağça işçilərinin maaşları artırılıb

Tbilisi meri Kaxa Kaladze bildirib ki, uşaq bağçası işçilərinin maaşları orta hesabla 25 faiz artırılıb.

Söhbət Tbilisi ərazisindəki dövlət uşaq bağçalarının işçilərindən gedir; onların orta maaşı 300. 0 lari idi.

"Bu, Baş nazirin vədi idi və biz sözsüz ki, onu yerinə yetiririk", - deyə Kaladze bildirib.

Onun sözlərinə görə, 13,5 minə yaxın uşaq bağçası işçisi bütün dövlət qulluqçuları üçün qanunla nəzərdə tutulmuş illik 10 faizlik maaş artımından əlavə, 125 lari məbləğində əlavə maaş alacaq.

Hazırda Tbilisidə 190 dövlət uşaq bağçası var - onlarda təlim-tərbiyə pulsuzdur, lakin orada yalnız Gürcüstan vətəndaşları və yaşayış icazəsi olan şəxslər qəbul olunur.

Uşaq bağçalarına qeydiyyat elektron qaydada yaz aylarında aparılır - ilk olaraq ehtiyacı olan ailələrin uşaqları, sağlamlıq imkanları məhdud uşaqlar və qardaşı və bacısı artıq bağçada böyüyənlər qeydiyyatdan keçirlər.

SAĞLAMLIĞIMIZI QORUYAQ

# YÜKSƏK QAN TƏZYİQİNİ AZALDAN 6 QİDA MƏHSULU



İnsanların 1/3 16—24 yaşlarında hipertoniyanın hər hansı bir formasından əziyyət çəkir. Son araşdırmalar göstərib ki, xəstəlik yüngül formada olsa belə, vaxtından əvvəl qocalmağa və beyin zədələnməsinə səbəb ola bilər. Daim yayılan bu epidemiyanın ənənəvi üsulla, yəni dərman qəbul etməklə qan təzyiqinə nəzarət etmək xərçəngin və başqa xəstəliklərin ehtimalının artmasına səbəb olur. Lakin qan təzyiqini aşağa salınması üçün başqa vasitələr də mövcuddur. Bu üsullardan biri qeyd olunan altı qidadan düzgün istifadə etməkdir. Bu qidalar: **badam, kayen bibəri, hind cevizi südü (kokos südü), çiy kakao, zərdəçal (kurkuma), darçındır.** Bu sayımızda siyahımızdakı birinci qida məhsulu olan **badam** haqda ətraflı məlumat veririk.

### 1.Badam

***Badamın orqanizm üçün qiymətli xüsusiyyətləri onun tərkibindəki vitaminlərə əsaslanır.*** Badamın tərkibində vitaminlər (A, C, E, B qrupu), antioksidantlar, minerallar (kalsiumun tərkibinə görə bütün digər qoz-fındıq növlərini üstələyir), monodoymamış yağlar, linoleik turşu, Omeqa-6 yağ turşuları, zülallar və lif var. Badam proteini ərzaq məhsulu kimi yüksək qida dəyərinə malikdir və vegetarianlara (ət məhsulları yeməyənlər) protein ehtiyatlarını artırmaq üçün tövsiyə olunur.

100 qram məhsulun tərkibində manqanın gündəlik dozası, B2 vitamininin 80 faizi və dəmirin gündəlik dozasının yarısı var.

Şirin badam, faydalı xüsusiyyətləri sayəsində bədənə çoxşaxəli təsir göstərir: immunitet sistemini gücləndirir; xolesterol lövhələrini həll edir və aterosklerozun inkişafının qarşısını alır; yuxusuzluğu aradan qaldırır; mədədə turşuluq səviyyəsini normallaşdırır və tənzimləyir; mədə ağrısını və narahatlığı aradan qaldırır; bağırsaq peristaltikasını stimullaşdırır; ürək ritmini və qan təzyiqini bərpa edir; əhval-ruhiyyəni yüksəldir; enerji və canlılıq yükləyir; fiziki hazırlığı yaxşılaşdırır; qan şəkərinin səviyyəsini azaldır; hemoqlobini artırır; zəhərli maddələri çıxarır; qanı təmizləyir; asma simptomlarını aradan qaldırır; sinirləri sakitləşdirir; bədənin vaxtından əvvəl qocalmasının qarşısını alır; xərçəngin qarşısını almağa xidmət edir.

Badam insan orqanizmi üçün xüsusilə qan azlığı, soyuqdəymə, miqren, depressiya, qıcolma, tənəffüs, ürək-damar, sinir və həzm sistemi xəstəliklərində faydalıdır. Aşağı qlisemik indeksinə görə şəkərli diabetdən əziyyət çəkən insanlar tərəfindən istehlak edilə bilər.



Məktəblilərin və tələbələrin, eləcə də zehni işlə məşğul olan insanların qida rasionuna badam ləpələrinin daxil edilməsi məqsədəuyğundur. Onlar beyin fəaliyyətini aktivləşdirir, yaddaşı yaxşılaşdırır və konsentrasiyanı artırır.

Bir ovuc çiy badam yemək sağlam qan təzyiqinin saxlanmasına əhəmiyyətli təsir göstərə bilər. Badam hipertoniyanı dayandırmaq üçün pəhriz yanaşmasının əsas elementidir, çünki onlar qan xolesterolunu azaltmağa, damarlarda iltihabı asanlaşdırmağa və qan təzyiqini aşağı salmağa kömək edən doymamış yağlarla zəngindir.

Badam əsasən yağ və kalori ehtiva etsə də, arıqlamağa və əzələ inkişafına kömək edir, yəni sağlam qan dövranını təşviq edir. Qan təzyiqini aşağı salan digər qoz-fındıqlarla birlikdə yeyildikdə, badam ürək-damar sağlamlığı üçün ən sağlam qidalardan biridir.

Badamın tərkibində zülallar (20%); yağlar (50%); karbohidratlar (13%); lif (4%); mineral maddələr (2,5%) var.

Qeyd edək ki, 2015-ci ildə 1000 qida üzərində aparılan araşdırmaya görə, badam gündəlik qida ehtiyaclarını ödəmək üçün lazım olan qidalar arasında "qidalanma uyğunluğu"nda birinci yerdədir.

***Nəzərə almaq lazımdır ki, dozadan artıq olarsa, badam faydaları ilə yanaşı zərər də verə bilər.*** Bu, artıq çəki, başgicəllənmə, huşunu itirmə, ürək dərəcəsinin artması və hətta dərman intoksikasiyasına səbəb ola bilər.

Badamın kalori miqdarı olduqca yüksəkdir (təxminən 600 kilokal. qədər). Buna görə də, məhsula çox meyl etməməlisiniz. Kişilər üçün gündəlik doza 50 qrama qədər (10 ləpə), qadınlar və uşaqlar üçün isə 20-30 qram (5-7 ləpə) olmalıdır.

Acı badam yemək olmaz. Onun ləpəsində qlikozid amiqdalin var, parçalandıqda zəhərli hidrosiyanik turşu əmələ gətirir. Böyük dozalarda yaşlılarda şiddətli zəhərlənməyə və uşaqlarda ölümə səbəb ola bilər.

Əlavə edək ki, şirin badam, faydalı xüsusiyyətlərinə əlavə olaraq, əks göstəricilərə də malikdir, bunlara aşağıdakılar daxildir: fərdi dözümsüzlük; piylənmə - iştahı artırır və bədəni kalorilərlə doldurur; taxikardiya - ürək döyüntüsünü sürətləndirir; ürək xəstəliyinin kəskinləşməsi; psixi və sinir pozğunluqları; güclü həyəcan vəziyyəti və s.

*(Davamı növbəti sayımızda)*

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ



### 24 yanvar

•**1125—David Ağmaşenebeli, Gürcüstan kralı, vəfat edib.**
•1835 — Braziliyanın Salvador şəhərində qullar 50 ildən sonra orada köləliyə son qoymaq üçün üsyan ediblər.
•1848—Kaliforniya qızıl hərisliyi: Ceyms Marşal Sakramento ( ABŞ-də şəhər Kaliforniya ştatının mərkəzi) yaxınlığındakı Satter dəyirmanında qızıl tapıb.
•1852—Tamar Çavçavadze (ictimai xadim), gürcü ictimai xadim, anadan olub.
•1922—Kristian Nelson Eskimo dondurmasının (Balıq, ət, yağ və meyvə qarışığından hazırlanan dondurma) patentini alıb.
•1924—Sankt-Peterburq şəhəri Leninqrad adlandırılıb.
•1927—Rejissor Alfred Hiçkok İngiltərədə ilk filmi olan "Vəziyyətlər bağı"nı nümayiş etdirib.
•2020—Böyük Britaniyanın Baş naziri Boris Conson ölkənin Avropa İttifaqından çıxması haqqında sazişi imzalayıb.
• Birləşmiş Millətlər Təşkilatı — Beynəlxalq Təhsil Günü

### 25 yanvar

•1755 —Moskva Universiteti yaradılıb.
•1784 —Mixail Barataşvili, gürcü tarixçi, anadan olub.
•1838—Hacı Zeynalabdin Tağıyev, Azərbaycan xeyriyyəçisi, anadan olub.
•1892 — Qiorqi Eliava gürcü alimi anadan olub.
•1918 —Rusiya Sovet Respublikası elan edilib.
•1924 — Fransanın Şamoni şəhərində I Qış Olimpiya Oyunları keçirilmişdir.
•1924—Levan Bolkvadze, gürcü yazıçı, filoloq, tərcüməçi, anadan olub.
•1955—Rusiya Almaniya ilə müharibə vəziyyətinə rəsmən son qoyub.

### 26 yanvar

•661—Rəşidi xilafətinin sonu Sonuncu xəlifə Hz. Əlinin qətlindən sonra baş verib.
•**1802—İtaliya Respublikasının yaradılması elan edilib.**
•1860— David Mesxi, gürcü tərcüməçi, jurnalist, dramaturq, anadan olub.
•1918— Tbilisi Dövlət Universitetinin əsası qoyulub.
•1933—Eldar Şengelaia, gürcü kinorejissor, anadan olub.
•2009 — Hüseynqulu Bağırov Cənub qütbünə çatan ilk azərbaycanlı olmuşdur.
• Hindistan — Respublika Günü
•Uqanda — Azadlıq Günü

### 27 yanvar

•1785—ABŞ-də ilk dövlət universiteti olan Corcia Universiteti yaradılıb.
•1880—Tomas Edison elektrik lampasının patentini alıb.
•1921— İlia Alxazişvili, gürcü yazıçı, alimi və ictimai xadim vəfat edib.

### 28 yanvar

•1724—Rusiya Elmlər Akademiyası Sankt-Peterburqda Böyük Pyotr tərəfindən təsis edilmişdir. 1917-ci ilə qədər Sankt-Peterburq Elmlər Akademiyası adlanırdı.
•1923 — "Azərbaycan" ədəbiyyat jurnalı nəşr olunub.
•1982—İvane Qiqineişvili — gürcü dilçi, vəfat edib.
•2011—Rusiyanın Saxalin (Rusiyanın ən böyük adası) adasının sahillərində, 12 345 m dərinlikdə qazılan quyu dünyanın ən dərin quyusudur.
•2015 — Vaqif Səmədoğlu, Azərbaycan şairi, vəfat edib.

### 29 yanvar

•**661 — Əli, İslamı qəbul edən ilk kişi vəfat edib.**
•1547— İvan Qroznı Moskva kralı olub.
•1635— Fransa Elmlər Akademiyası yaradılıb.
•1860 — Anton Çexov, Rus yazıçı anadan olub.
•1837 — Aleksandr Puşkin, Rus şair, vəfat edib.
•1929— Qandegili gürcü şair, və nasir, vəfat edib.
•1960— İlk süni böyrək yaradılıb.

### 30 yanvar

•1933 — Adolf Hitler Almaniyanın kansleri olmuşdur.
•1946 — Macarıstan respublika elan edilib.
•1973 — Levan Qotua, gürcü yazıçı, vəfat edib.
•1987 — Veriko Ancaparidze, gürcü aktrisa, vəfat edib.

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## HZ. ƏLİ

***Həzrət Əli İslamın dördüncü xəlifəsi və Peyğəmbər Məhəmmədin əmisi oğlu və kürəkəni idi. O, İslam tarixində həm dini, həm də siyasi baxımdan böyük önəm daşıyan şəxsiyyətlərdən biri hesab olunur.*** Həzrət Əli yüksək elmi, müdrikliyi və ədaləti ilə tanınır və həmçinin, şiə məzhəbinin ilk imamı olaraq qəbul edilir. İslamı qəbul edən ilk kişi, ikinci şəxsdir. Həzrət Əli Məkkədə, Qüreyş qəbiləsindən olan Əbu Talibin və Fatimə bint Əsədin ailəsində dünyaya gəlmişdir. Əli ilk olaraq Məhəmməd Peyğəmbərin himayəsində böyümüş və gənc yaşlarından onun yanında olmuşdur. Məhəmməd ilahi vəhy aldığını bildirdiyi zaman, Əli İslamı qəbul edən ilk kişi olmuş və həyatını bu dinə həsr etmişdir. O, Peyğəmbərə iman gətirən və onun ətrafında möhkəm duran ilk şəxslərdən idi.

Həzrəti Əli



Həzrət Əli, Peyğəmbər Məhəmmədin həm əmisi oğlu, həm də qızı Fatimənin həyat yoldaşı idi. Əli Məhəmməddən sonra Mədinəyə köçmüşdür. Orada Əli Məhəmmədin qızı Fatimə ilə ailə həyatı qurmuşdur. Həzrət Əli, Rəşidi xəlifələrindən dördüncüsü idi. O, 656-cı ildə Osman ibn Əffanın şəhid edilməsindən sonra Mədinə məscidində xalq tərəfindən xəlifə seçilmişdir. Həzrət Əli ədaləti və bərabərliyi əsas götürən idarəetmə sistemi ilə tanınırdı.

Həzrət Əli elmi dərinliyi ilə məşhur idi. O, Quranın təfsiri, fiqh və İslam fəlsəfəsi sahəsində böyük biliklərə malik idi. Onun çoxsaylı hikmətli sözləri və xütbələri "Nəhcül-Bəlağə" adlı kitabda toplanmışdır. Əli, eyni zamanda, ədalət, mərhəmət və təqva ilə seçilən bir şəxsiyyət kimi tanınırdı. Onun haqqında deyilir ki, zəiflərə qarşı son dərəcə şəfqətli, lakin ədalətsizliyə qarşı sərt idi.

Həzrət Əli 661-ci ildə Kufə məscidində, İraqın mövcud ərazisində, səhər namazı zamanı xarici bir sui-qəsdçi tərəfindən zərbə alaraq şəhid olmuşdur. O, Nəcəfdə (indiki İraq) dəfn edilmişdir və məzarı ziyarətgahdır.

Həzrət Əli İslam tarixində həm siyasi lider, həm də dini şəxsiyyət kimi mühüm rol oynamışdır. O, həm sünni, həm də şiə məzhəbləri tərəfindən böyük hörmətlə yad edilir. Şiə məzhəbində isə o, Peyğəmbərin vəsisi və məsum imam kimi qəbul edilir. Əlinin cəsarəti, ədaləti və hikməti İslam dünyasında əbədiləşmişdir. İslam mədəniyyətində Əlinin özünəməxsus yeri vardır: Belə ki, o İslamda müdriklik, dürüstlük, igidlik, hörmət və s. rəmzidir. Xüsusən Təsəvvüfdə Əli təfsir, fiqh və dini fikir sahələrində ən yüksək şəxs hesab olunur.

Həzrət Əli İslam tarixində yüksək mənəvi dəyərlər və fədakarlıq nümunəsi olaraq həmişə yad edilir və onun irsi müsəlmanlar üçün əbədi ilham mənbəyidir.

## DAVİD AĞMAŞENEBELİ

***David Ağmaşenebeli—Qurucu David 1073-1125), Gürcüstanın Qızıl Dövrünü başlatmış ən böyük hökmdarlardan biri kimi tanınır.*** O, 1089-cu ildə 16 yaşında Gürcüstanın kralı olmuş və ölkəni güclü bir dövlətə çevirmişdir. Ağmaşenebeli, yalnız hərbi və siyasi sahədə deyil, həm də mədəni və dini həyatın inkişafında mühüm rol oynamışdır.



David, Baqrationilər sülaləsindən olan IV Qiorqi və kraliça Quranduxtun oğlu idi. O, uşaqlıqdan təhsilli və zəngin biliklərə malik bir şəxs kimi böyüyüb. 1089-cu ildə atasının ağır vəziyyəti səbəbindən hakimiyyətə gətirilib. O zaman Gürcüstan Səlcuq türklərinin təzyiqi altındaydı və zəifləmiş vəziyyətdə idi.

David Ağmaşenebeli ilk iş olaraq Səlcuq türklərinə qarşı uğurlu mübarizəyə başlayıb. O, Gürcüstan ordusunu gücləndirib, hərbi islahatlar həyata keçirib və torpaqlarını işğaldan azad edib. 1121-ci ildəki məşhur Didqori döyüşündə Davidin rəhbərlik etdiyi Gürcüstan ordusu Səlcuqları məğlub edərək böyük bir qələbə qazanıb. David Ağmaşenebeli yalnız hərbi uğurları ilə deyil, həm də daxili islahatları ilə tanınır. O, torpaqların yenidən bölüşdürülməsini həyata keçirib və kəndlilərin vəziyyətini yaxşılaşdırıb. Daimi bir ordu yaradaraq "Monqrel süvariləri" kimi tanınan döyüşçü dəstələrini qurmuşdur. Xarici döyüşçüləri (xüsusilə qıpçaq türklərini) Gürcüstan ordusuna cəlb edərək onun döyüş gücünü artırıb. Kilsəni gücləndirib və gürcü dilini rəsmi olaraq bütün dövlət sənədlərində tətbiq edib. Təhsil ocaqları və dini mərkəzlərininkişafina böyük töhfə verib.

David Ağmaşenebeli dövrü Gürcüstanın mədəni inkişafının zirvəsi hesab olunur. O, Gürcüstanın mədəniyyətini və elmini gücləndirmək üçün təhsil müəssisələri qurub. Gelati Monastırı və digər dini binaların inşası onun dövründə reallaşıb. O, həmçinin yazılı ədəbiyyatın inkişafina şərait yaradıb. David Ağmaşenebeli, həm də ədalətli və uzaqgörən bir lider kimi tanınırdı.

O, ölkənin müxtəlif dini və etnik qruplarını bir araya gətirərək tolerant bir cəmiyyət qurub. Onun adı tarixdə "Ağmaşenebeli" (Qurucu) ləqəbi ilə əbədiləşmişdir. Bu ad onun müdrikliyi və xalqın həyatını yaxşılaşdırması ilə əlaqələndirilir.

David 1125-ci ildə vəfat edib və Qelati Monastırında dəfn edilib. Onun ölümündən sonra oğlu Demetre I hakimiyyətə gəldi.

David Ağmaşenebeli, güclü bir lider, hərbi strateq və mədəniyyət xadimi kimi təkcə Gürcüstanın deyil, bütün regionun tarixində əbədi iz qoymuş bir şəxsiyyətdir. Onun irsi bu gün də Gürcü xalqının qürur mənbəyidir.

## İ T A L İ Y A

İtaliya Respublikası Avropanın cənubunda yerləşən, zəngin tarixə, mədəni irsə və möhtəşəm təbiətə malik bir ölkədir. Ölkə Şərqi Aralıq dənizində yerləşir və Apennin yarımadasını, Siciliya, Sardiniya və digər kiçik adaları əhatə edir. İtaliya qərbdən Fransa, şimaldan İsveçrə və Avstriya, şərqdən Sloveniya ilə həmsərhəddir. Ölkənin paytaxtı Roma şəhəridir.

İtaliyanın ümumi sahəsi təxminən 301,340 kvadrat kilometrdir. Ölkə dağlıq relyefə malikdir. Şimalda Alp dağları yerləşir və Avropanın ən yüksək zirvələrindən biri olan Mont Blanc bu regiondadır. İtaliyanın ərazisində iki məşhur vulkan – Etna (Siciliyada) və Vezuvi (Neapol yaxınlığında) yerləşir.




Ölkə Aralıq dənizinin müxtəlif hissələri ilə əhatə olunub: Tirren dənizi qərbdə, Adriatik dənizi şərqdə, İon dənizi isə cənubdadır. Po çayı ölkənin ən uzun çayıdır və əsasən şimal düzənliklərindən keçir.

Cənubi Avropa və Aralıq dənizi kimi mühüm coğrafi qovşaqlarda yerləşdiyinə görə bu ərazi saysız-hesabsız xalqlara və mədəniyyətlərə ev sahibliyi etmişdir. Müasir İtaliya ərazisi müxtəlif xalqlara ev sahibliyi etməsinə baxmayaraq, antik dövrdən bu ərazilərdə məskunlaşmış və yarımadaya öz adını vermiş italiklər bu ərazilərin ilk sakinləri hesab olunur.

İtaliyanın əhalisi təxminən 60 milyondur. Rəsmi dil italyan dilidir. Bununla yanaşı, bəzi bölgələrdə almanca, fransızca və slovencə də danışılır.

İtaliya zəngin tarixi ilə tanınır. Roma İmperiyasının mərkəzi olan İtaliya, antik dövrdə Qərb mədəniyyətinin formalaşmasına böyük təsir göstərmişdir. Roma İmperiyasının süqutundan sonra burada bir sıra kiçik dövlətlər və şəhər-dövlətlər formalaşmışdır. Orta əsrlərdə İtaliya, intibah dövrünün yarandığı yerdir. Florensiya, Venesiya və Milan kimi şəhərlər İntibah mədəniyyətinin əsas mərkəzlərindən olmuşdur.

İtaliya 1861-ci ildə birləşmiş və vahid bir dövlət olmuşdur. Daha sonra, 1946-cı ildə monarxiya ləğv edilərək respublika qurulmuşdur.

İtaliya parlament respublikasıdır. Prezident dövlət başçısı, baş nazir isə hökumət başçısı funksiyasını yerinə yetirir. Ölkə Avropa İttifaqının təsisçi üzvlərindən biridir və NATO, BMT kimi təşkilatlarda da iştirak edir.

İtaliya həm də dünyada incəsənət, memarlıq və musiqi sahəsindəki töhfələri ilə məşhurdur. Leonardo da Vinçi, Mikelancelo, Dante Aligyeri kimi şəxslər İtaliyanın qlobal mədəniyyətə verdiyi ən böyük töhfələrdəndir.

İtaliyada qədim dövrlərdən bu yana təhsil və elmin inkişafı böyük əhəmiyyət kəsb edir. Dünyanın ən qədim universitetlərindən biri olan Boloniya Universiteti (1088-ci ildə qurulub) burada yerləşir. İtaliya, həmçinin Qalileo Qaliley, Enriko Fermi və Alessandro Volta kimi elm adamlarının vətənidir.

İtaliya dünyanın ən böyük iqtisadiyyatlarından birinə sahibdir. Ölkə sənaye, kənd təsərrüfatı və turizm sahələrində inkişaf etmişdir. Avtomobil istehsalı, moda və lüks mallar istehsalı İtaliyanın əsas iqtisadi sahələrindən biridir. "Ferrari," "Lamborghini," "Gucci" və "Prada" kimi qlobal markalar İtaliyaya məxsusdur.

Kənd təsərrüfatında üzüm, zeytun və buğda əsas məhsullardır. Ölkə eyni zamanda şərab istehsalı ilə də tanınır və dünyada ən böyük şərab istehsalçılarından biridir.

Turizm İtaliya iqtisadiyyatında böyük əhəmiyyət kəsb edir. Roma, Venesiya, Florensiya, Milan, Pisa və Neapol kimi şəhərlər hər il milyonlarla turisti cəlb edir.

Məşhur turistik görməli yerləri: **Kolizey** – Roma İmperiyası dövrünə aid ən böyük amfiteatr; Piza Qülləsi – Piza şəhərində yerləşən məşhur əyri qüllə; **Vatikandakı Müqəddəs Pyotr Bazilikası** – Xristian aləminin ən müqəddəs yerlərindən biri. **Venesiya Kanalı** – Su üzərində qurulmuş romantik şəhər; **Pompey Xarabalıqları** – Vezuvi vulkanının püskürməsi nəticəsində qorunub saxlanılan qədim şəhər və s.



İtaliya sənətkarlığı qədim dövrlərdən bəri yüksək səviyyədə inkişaf edib. Murano şüşəsi (Venesiya), Florensiya dəri məhsulları və Siciliya keramika sənəti İtaliyanın sənətkarlıq ənənələrinin nümunəsidir. Əlavə olaraq, İtaliyada müxtəlif festival və karnavallar, xüsusilə Venesiya Karnavalı, hər il böyük maraqla qarşılanır.

İtalyan mətbəxi dünyada ən məşhur mətbəxlərdən biridir. Makaron, pizza, risotto, tiramisu kimi yeməklər dünya mətbəxində xüsusi yer tutur. İtalyan mətbəxi sadəliyi və yüksək keyfiyyətli təbii məhsullardan istifadəsi ilə tanınır.

İtalyanlar adətən, sadə, lakin yüksək keyfiyyətli həyat tərzini üstün tuturlar. Aralıq dənizi pəhrizi İtaliya mətbəxinin əsasını təşkil edir. Zeytun yağı, təzə tərəvəzlər, balıq və qırmızı şərab italyan mətbəxində mühüm yer tutur. Bu pəhriz tərzi uzun ömürlülüklə əlaqələndirilir.

# GÜRCÜSTAN

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

" საქართველო "
"S A K A R T V E L O"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა




İDMAN İDMAN

## MERAB DVALİŞVİLİ UMAR NURMƏHƏMMƏDOVU MƏĞLUB EDƏRƏK ÇEMPİONLUQ KƏMƏRİNİ QORUYUB



Merab Dvalişvili super yüngül çəkidə UFC çempionluq kəmərini qoruyub.

Gürcüstanlı döyüşçü rusiyalı döyüşçü Umar Nurməhəmmədovu məğlub edib.

Qeyd edək ki, Merab Dvalişvili 2024-cü ilin sentyabrında Con Omallini məğlub edərək çempion titulunu qazanmışdı.

Merab Dvalişvilinin MMA-da 19 qələbə və 4 məğlubiyyəti var; bu, Merab Dvalişvilinin ardıcıl 12-ci qələbəsi olub. Nurməhəmmədovun isə MMA-da ilk məğlubiyyəti olub, indiyədək rusiyalı döyüşçünün hesabında 18 qələbəsi var. O, indiyədək məğlub olmamışdı.

## ÇİNDƏ KEÇİRİLƏN BEYNƏLXALQ YARIŞDA QARAÇÖPDƏN OLAN İDMANÇIMIZ BİRİNCİ YERƏ SAHİB OLUB

***Çinin paytaxtı Pekin şəhərində keçirilən "Kikboksinq" idman növü üzrə K-1 beynəlxalq yarışına qatılan Qaraçöplü idmançımız Elvin Kazımov birinci yerə sahib olub.***

Yarışda Rusiya, İran, Tayland, Çin, Gürcüstan, Vyetnam və digər bir sıra ölkələrdən 50-dən çox idmançı medallar uğurunda mübarizə aparıblar.

65 kq çəki dərəcəsində Elvin Kazımov döyüşdə çinli rəqibinə texniki nokautla qalib gəlib.

Məlumat üçün bildirək ki, İbrahim Məmmədovun yetirməsi olan Elvin Kazımov bu günədək bir sıra ölkə miqyaslı və beynəlxalq yarışlarda iştirak edib və uğurlar qazanıb.



QƏZA

## QARDABANİ RAYONUNDA AĞIR YOL QƏZASI: GƏNC OĞLAN HƏYATINI İTİRİB



***Qardabani rayonunun Birlik kəndin-də ağır yol qəzası baş verib.***

"Lada" və "Volsvagen" avtomobilərinin toqquşması nəticəsində bir gənc oğlan həyatını itirib.

Qəza nəticəsində daha iki nəfər yaralanıb. Yaralılar təcili tibbi yardım vasitəsilə xəstəxanaya aparılıb.

Hadisə yerinə polis və təcili tibbi yardım briqadaları cəlb edilib. Faktla bağlı araşdırma aparılır.

## DÜNYANIN İLK TRİLYONERİ KİM OLACAQ?

***Milyarderlər "yarışda" geri qalır. İlk trilyonerlər artıq yoldadır.***

Hazırkı tendensiyalar davam edərsə, növbəti on il ərzində ən azı beş nəfərin sərvəti 1 trilyon ABŞ dollarını aşacaq.

Hazırda dünyanın ən zəngin şəxsi olan "Tesla" və "SpaceX" şirkətlərinin rəhbəri İlon Maskın (Elon Musk) sərvəti 430 milyard dollardan artıqdır və onun bu rəqəmə beş ildən az müddətdə çatacağı gözlənilir.

"Oxfam", 2024-cü ilin dünyanın ən varlı şəxsləri və ailələri üçün olduqca qazanc gətirən bir il olduğunu bildirib. Xüsusilə ABŞ-nin sürətlə artan fond bazarı bu artımın əsas səbəblərindən biri kimi göstərilib. Sərvətlərin bu qədər sürətlə artması "Oxfam"ın əvvəlki il üçün hazırladığı hesabatı yenidən nəzərdən keçirməsinə səbəb olub. İndi proqnozlara görə, növbəti on il ərzində yalnız bir nəfərin deyil, bir neçə nəfərin trilyoner olacağı gözlənilir.

"Bu, təsəvvür edilməz bir məbləğdir," -deyə "Oxfam America" təşkilatının yüksək vəzifəli siyasi rəhbəri Rebekka Riddel (Rebecca Riddell) bildirib. "Bu cür ifrat qeyri-bərabərlik qətiyyən qeyd etməyə dəyər bir şey deyil."

BAŞSAĞLIĞI

"Gürcüstan" qəzetinin kollektivi Borçalı ozan-aşıq məktəbinin layiqli nümayəndəsi, ustad sənətkar **Aşıq Ziyəddinin (Ziyəddin Məhəmmədoğlu Əliyev)** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**



## MEŞƏDƏ AZADLIQ ANLARI



Foto E.Şahvələdindir.

MARAQLIDIR

## KOSMOSDA İLK DƏFƏ OKSİGEN ƏLDƏ EDİLİB

***Çinin idarə olunan "Şencou-19" ("Shenzhou-19") kosmik gəmisinin ekipajı Çin kosmik stansiyasında süni fotosintez təcrübələri uğurla həyata keçirib.***

"South China Morning Post" nəşri bu təcrübələrin dünyada ilk dəfə reallaşdığını bildirib. Missiya çərçivəsində astronavtlar kosmosda oksigen və raket yanacağı üçün vacib komponentlər istehsal edən süni fotosintez texnologiyasını uğurla sınaqdan keçiriblər.

Bu nailiyyət gələcək uzunmüddətli kosmik missiyalar üçün mühüm addım hesab edilir.



ABUNƏ YAZILMAĞI UNUTMAYAQ !

## "GÜRCÜSTAN" QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏRİN VƏ ABUNƏÇİLƏRİN NƏZƏRİNƏ!

***Hörmətli oxucular!***

"Gürcüstan" qəzeti Sizin sayənizdə bir əsrdir ki, davamlı nəşr olunaraq, öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib, oxuculara sədaqətlə xidmət edir. Mənəvi çırağımız olan qəzetimiz həmişə Sizə arxalanmış, Sizdən ilham almışdır.

"Gürcüstan" qəzeti öz səsi, sözü ilə sələflərin mübariz ruhunu, həmişəyaşar ənənələrini qoruyub saxlayır və beləliklə, aybaay, ilbəil, nəsilbənəsil Gürcüstan azərbaycanlılarının həyat salnaməsiniyaradır, mənəvi dəyərlərimizin zənginləşməsinə töhfələr bəxş edir, milli-mənəvi dəyərlərimizin daşıyıcısı kimi, dilimizin saflığının keşiyində qürurla dayanır. Qəzetimiz 2020-ci ilin mart ayına qədər 2000 nüsxə ilə nəşr olunurdusa, hal-hazırda qəzetin yayım coğrafiyası genişlənmiş, abunə sayı 55 faiz artaraq, 3100 nüsxəyə çatmışdır. Bir əsrdən çox ömrü olan "Gürcüstan" qəzetini yaşatmaq hər birimizin mütləq mənəvi borcudur. 2025-ci ildə "Gürcüstan" qəzetinə abunə olmaq istəyən şəxslər-fərdi abunəçilər (adını, soyadını və ünvanını göstərməklə), məktəblər, idarə, müəssisə və təşkilatlar yerlərdə qəzetin müxbirləri ilə və ya E-mail:Gurcustan_1921@mail.ru elektron poçtu vasitəsi ilə müqavilə bağlamaqla abunə haqqını qəzetimizin səkkizinci səhifəsində göstərilən bank hesabına köçürə bilərlər.

"Gürcüstan" qəzetinə illik abunə haqqı 20 (iyirmi) laridir. İl ərzindəabunəçiyə həftədə bir dəfə olmaqla 50 (əlli) qəzet təqdim ediləcək.

***Milli mənəvi dəyərlərimizi yaşadan, dilimizin keşiyində duran, varlığımızın göstərcisi olan "Gürcüstan" qəzetini yaşatmaq və ondan bəhrələnmək üçün abunə olmağı unutmayın.***

Qəzetimizə il boyu abunə ola bilərsiz. Abunə müddəti ödəniş tarixindən başlanır. "Gürcüstan" qəzetinin qayğıkeş, əməksevər kollektivi Sizin xidmətinizdə dayanaraq, etimadınızı doğruldacaqdır.

Əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Qeyd:** Qəzetin abunəçiyə vaxtında çatdırılması təmin olunacaq.

Müdiriyyət.

გაზეთის ანგარიშის ნომერი
შპს „გურჯისტანი" ს/კ 203863792
ანგარიშის **№ GE03LB0111185703773000**
სს ლიბერთი ბანკი **SWİFT: LBRTGE22**


Baş redaktor: Xaləddin YOLÇUYEV

Redaktor müavini: Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı:
Tbilisi şəh. Tsereteli pr. 142, I mərtəbə.
E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444
Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur.
Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.